AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

6 İYUL 2018-ci il CÜMƏ № 146 (6179) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Prezident İlham Əliyev Finlandiyanın xarici ticarət və inkişaf nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleyninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleyninin Azərbaycana səfərinin ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlıq, o cümlədən ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi və bunun üçün geniş potensialın mövcud olduğunu vurğuladı. Prezident İlham Əliyev nəqliyyat dəhlizi sahəsində də əməkdaşlığın önəm daşıdığını bildirərək qeyd etdi ki, Azərbaycan hazırda tərəfdaş və qonşu ölkələr arasında nəqliyyat bağlantısının yaradılması işinə fəal sürətdə investisiya qoyur və ölkəmiz mühüm Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizinə çevrilməkdədir. Şimal-Cənub nəqliyyat layihəsinin uğurlu icrasına başlanmışdır. Azərbaycan bu sahəyə böyük həcmdə sərmayə qoyur. Dövlətimizin başçısı iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından biznes sahəsində fəallığın artırılmasının vacibliyini də qeyd etdi. Azərbaycanda Finlandiyanın bir neçə şirkətinin çalışmasına toxunan Prezident İlham Əliyev bu şirkətlərin sayının daha da artırılmasının mümkün olduğunu dedi və bildirdi ki, Azərbaycanın iqtisadi inkişafı, perspektiv planlar, güclü iqtisadi infrastruktur digər xarici şirkətlər kimi, Finlandiya şirkətlərinin də iqtisadiyyatımızın müxtəlif sahələrində fəal çalışmaları üçün yaxşı imkanlar yaradır.

Xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleynin Finlandiya Prezidenti Sauli Niinistönün salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq Azərbaycan Prezidenti ilə Finlandiya Prezidentinin Davosda keçirilən görüşünün məmnunluqla xatırlandığını bildirdi. Finlandiyanın xarici ticarət və inkişaf naziri ölkəmizə səfər proqramının çox məzmunlu olduğunu deyərək, səfər zamanı məhsuldar görüşlər keçirəcəyinə ümidvar olduğunu söylədi. O, Bakının gözəlliyinin nümayəndə heyəti üzvlərində böyük təəssürat doğurduğunu qeyd etdi və paytaxtımızda tarixi arxitektura abidələrinin müasir binalarla gözəl vəhdət təşkil etdiyini vurğuladı. Xanım Anne-Mari Viroleynin bildirdi ki, ölkələrimiz ümumi tarixə malikdirlər və Azərbaycan ilə Finlandiya arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar var.

Görüşdə ölkələrimiz arasında energetika, tranzit, peşə təhsili, infrastruktur layihələrində Finlandiya şirkətlərinin iştirakı, iş adamları arasında ticarət əlaqələrinin artırılması, sərmayə qoyuluşu, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Finlandiya Prezidenti Sauli Niinistönün salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Finlandiya Prezidentinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## Prezident İlham Əliyev Dünya Səhiyyə Təşkilatının baş direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun rəhbərlik etdiyi təşkilatla Azərbaycan arasında uğurlu əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev qeyd etdi ki, Dünya Səhiyyə Təşkilatı hər zaman Azərbaycanın təşəbbüslərinə və səylərinə dəstək verib və Tedros Adhanom Qebreyesusun bu səfəri əlaqələrimizin daha da möhkəmlənməsi baxımından önəmlidir. Səhiyyənin Azərbaycanda prioritet sahələrdən biri olduğunu qeyd edən dövlətimizin başçısı son illər ölkəmizdə bu sahədə böyük işlərin görüldüyünü, xeyli sayda yeni xəstəxanaların və tibb mərkəzlərinin tikildiyini vurğuladı. Prezident İlham Əliyev məmnunluq hissi ilə qeyd etdi ki, hazırda Azərbaycanın hər bir şəhərində bütün lazımi tibbi xidmətləri əhatə edən ən müasir avadanlıqla təchiz olunmuş tibb ocaqları fəaliyyət göstərir. Görülən bütün bu işlər orta yaş həddinin artması və uşaq ölümünün azalmasına öz müsbət təsirini göstərib. Prezident İlham Əliyev Dünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyinə əminliyini bildirib.

Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus, ilk növbədə, prezident seçkilərində qələbə qazanması münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Tedros Adhanom Qebreyesus Dünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlıqla bağlı görülən işlərdən danışdı. Azərbaycanda səhiyyə sahəsində həyata keçirilən islahatlara, ölkəmizin hər yerində ən müasir tibb ocaqlarının inşa edilməsinə toxunan qonaq bu istiqamətdə əldə edilən nailiyyətləri Azərbaycan dövlətinin və şəxsən Prezident İlham Əliyevin səhiyyəyə göstərdiyi yüksək diqqət və qayğının nəticəsi kimi qiymətləndirdi. Dünya Səhiyyə Təşkilatının baş direktoru ölkəmizdə qaçqın və məcburi köçkünlərə göstərilən yüksək dövlət qayğısından da danışaraq bildirdi ki, bu sahədə Azərbaycanın təcrübəsi bir çox Avropa ölkələrinə nümunə ola bilər.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## T.İ.Sinyavskayanın “Şərəf” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Rusiya-Azərbaycan mədəni əlaqələrinin möhkəmləndirilməsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Tamara İlyiniçna Sinyavskaya “Şərəf” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 iyul 2018-ci il.**

## R.G.Xəlilovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Rüstəm Gülabba oğlu Xəlilov “Şöhrət” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 iyul 2018-ci il.**

## T.B.Qorçuya “Əməkdar incəsənət xadimi” fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Tərlan Böyükbala oğlu Qorçuya “Əməkdar incəsənət xadimi” fəxri adı verilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 iyul 2018-ci il.**

## Sumqayıt Dövlət Dram Teatrının 50 illiyi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci ilin sentyabr ayında Sumqayıt Dövlət Dram Teatrının yaranmasının 50 illiyi tamam olur.

Azərbaycanın zəngin teatr ənənələrinin layiqli davamçısı kimi Sumqayıt Dövlət Dram Teatrı fəaliyyətə başladığı ilk vaxtlardan səmərəli yaradıcılıq axtarışları ilə daim diqqəti cəlb etmiş, klassik və müasir dramaturgiya xəzinəsinin bir sıra qiymətli nümunələrinə ustad sənətkarların yaxından iştirakı ilə yeni quruluşlarda uğurlu səhnə həyatı vermiş və ötən dövr ərzində tamaşaçı auditoriyasının rəğbətini qazanmışdır. Özünün istedadlı aktyor və rejissorlarını yetişdirən Sumqayıt Dövlət Dram Teatrı bu gün ölkənin tanınmış sənət ocaqlarından olub, milli mədəniyyətin ümumi tərəqqisi işinə töhfələr bəxş etməkdədir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və milli teatr sənətinin inkişafında xidmətlərini nəzərə alaraq, Sumqayıt Dövlət Dram Teatrının yaradılmasının 50-ci ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Sumqayıt Dövlət Dram Teatrının 50 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 iyul 2018-ci il.**

## “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1188-VQ nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1188-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 iyul 2018-ci il.**

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 4, maddə 213; 2001, N 3, maddə 143, N 6, maddə 362, N 11, maddələr 672, 679, N 12, maddə 731; 2002, N 1, maddə 2, N 5, maddə 241, N 6, maddə 328; 2003, N 1, maddələr 9, 23; 2004, N 1, maddə 10, N 2, maddə 57, N 3, maddə 133, N 6, maddə 413, N 7, maddə 505, N 9, maddə 672, N 12, maddə 981; 2005, N 3, maddə 151, N 4, maddə 278, N 7, maddə 560, N 10, maddə 874, N 11, maddə 1001, N 12, maddə 1094; 2006, N 3, maddələr 220, 222, N 5, maddə 385, N 11, maddə 923, N 12, maddələr 1004, 1025, 1030; 2007, N 5, maddələr 401, 437, N 6, maddə 560, N 8, maddə 756, N 11, maddələr 1049, 1053; 2008, N 3, maddə 156, N 7, maddələr 600, 602, N 10, maddə 887, N 11, maddə 960; 2009, N 2, maddə 48, N 5, maddə 294, N 6, maddə 399, N 12, maddələr 949, 969; 2010, N 2, maddələr 70, 75, N 4, maddə 275; 2011, N 1, maddə 11, N 2, maddələr 70, 71, N 6, maddə 464, N 7, maddə 598; 2012, N 11, maddə 1054; 2013, N 2, maddələr 89, 101, N 11, maddə 1268; 2014, N 2, maddə 92, N 10, maddə 1162, N 11, maddə 1339, N 12, maddə 1527; 2015, N 2, maddə 97, N 3, maddə 250, N 6, maddə 680; 2016, N 2 (I kitab), maddələr 190, 201, N 5, maddə 847, N 11, maddə 1767; 2017, N 6, maddələr 1031, 1048; N 12, I kitab, maddələr 2187, 2189; 2018, N 1, maddə 13) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 66-cı maddənin on birinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və maddəyə aşağıdakı məzmunda on ikinci abzas əlavə edilsin:

“Azərbaycan Respublikasında dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlər.”.

**2.** Aşağıdakı məzmunda 67-2-ci maddə əlavə edilsin:

“Maddə 67-2. Azərbaycan Respublikasında dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması

1. Azərbaycan Respublikasında dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının yoxlanılması məqsədi ilə həmin işçilər “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada sertifikatlaşdırmaya cəlb edilirlər.

2. Hamilə qadınların, uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra bir ildən az müddətdə müvafiq vəzifədə (peşədə) çalışan qadınların (uşağını təkbaşına böyüdən kişilərin) sertifikatlaşdırılması keçirilmir.

3. İlk dəfə işə qəbul olunanlar beş il müddətində, eləcə də azı üç dəfə sertifikatlaşdırmadan keçmiş şəxslər sertifikatlaşdırmaya cəlb edilmirlər.

4. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sertifikatlaşdırmadan təkrar keçməyən işçinin pedaqoji fəaliyyətə buraxılmaması onunla bağlanmış əmək müqaviləsinin bu Məcəllənin 70-ci maddəsinin “c” bəndinə müvafiq olaraq işəgötürən tərəfindən ləğv edilməsi üçün əsas ola bilər.”.

**3.** 70-ci maddənin “Qeyd” hissəsinin birinci cümləsində “komissiyası” sözündən sonra “Azərbaycan Respublikasında dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin və” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 iyun 2018-ci il.**

## “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununu “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 415; 2001, N 12, maddə 736; 2002, N 5, maddələr 235, 237,N 12, maddə 706; 2004, N 4, maddə 202, N 6, maddə 396, N 10, maddələr 761, 779; 2007, N 5, maddə 442, N 10, maddə 938; 2008, N 8, maddə 695; 2009, N 6, maddə 398; 2014, N 10, maddə 1169; 2015, N 2, maddə 102; 2017, N 6, maddə 1022, N 12, I kitab, maddə 2204) 16-cı maddəsinin üçüncü hissəsində “Məktəbəqədər tərbiyə müəssisələrində uşaqlara və ümumtəhsil məktəblərində şagirdlərə” sözləri “Məktəbəqədər və ümumi təhsil müəssisələrində” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 may 2018-ci il.**

## “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1148-VQD nömrəli Qanununun tətbiqi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1148-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 iyul 2018-ci il.**

## “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1149-VQD nömrəli Qanununun tətbiqi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1149-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 iyul 2018-ci il.**

## “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanununu “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, N 7, maddə 710; 2011, N 12, maddə 1088) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 13.1-ci maddədə “orta peşə-ixtisas və texniki-peşə təhsili” sözləri “peşə təhsili və əlavə təhsil” sözləri ilə əvəz edilsin.

**2.** 13.2-ci maddədə “tərbiyə” sözü “təhsil” sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 may 2018-ci il.**

## “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1146-VQD nömrəli Qanununun tətbiqi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1146-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 iyul 2018-ci il.**

## “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununu “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, N 22, maddə 947; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 419; 2001, N 3, maddə 143; 2004, N 2, maddə 57, N 4, maddə 199; 2007, N 11, maddə 1052; 2009, N 12, maddə 968; 2014, N 10, maddə 1153; 2016, N 6, maddə 980; 2017, N 12, I kitab, maddə 2200) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 23-cü maddədə “məktəbəqədər uşaq tərbiyə müəssisələrində, orta məktəblərdə və texniki peşə məktəblərində” sözləri “təhsili müəssisələrində” sözləri ilə əvəz edilsin.

**2.** 39-cu maddənin on altıncı abzasında “uşaq tərbiyə və yeniyetmə müəssisələrində, texniki peşə məktəblərində, habelə” sözləri “təhsili müəssisələrində, habelə digər” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 may 2018-ci il.**

## “Xəzər dənizinin Azərbaycan sektorunda “Qarabağ” neft yatağının işlənməsi ilə əlaqədar” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Qarabağ BV və SOCAR Qarabağ LLSi arasında Risk xidmət Sazişinin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

2018-ci il mayın 30-da Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (“SOCAR”), Statoyl Azərbaycan Qarabağ BV (“Statoyl”) və SOCAR Qarabağ LLSi (“SOCAR Qarabağ”) arasında Risk xidməti Sazişi bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**1.** “Xəzər dənizinin Azərbaycan sektorunda “Qarabağ” neft yatağının işlənməsi haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Qarabağ BV və SOCAR Qarabağ LLSi arasında Risk xidməti Sazişi (bundan sonra - Saziş) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra - Hökumət təminatı) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

**3.** Sazişin əsas mətninə edilmiş on iki (12) Əlavə (bundan sonra - Əlavələr) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

**4.** Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

**5.** Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

**6.** Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

**7.** Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

**8.** Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 iyun 2018-ci il.**

## “Xəzər dənizinin Azərbaycan sektorunda Əşrəfi - Dan ulduzu - Aypara sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Əşrəfi Dan Ulduzu Aypara BV və SOCAR-ın Ortaq neft şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

2018-ci il mayın 30-da Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (“SOCAR”), Statoyl Azərbaycan Əşrəfi Dan Ulduzu Aypara BV (“Statoyl”) və SOCAR-ın Ortaq neft şirkəti (“ONŞ”) arasında Saziş bağlanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**1.** “Xəzər dənizinin Azərbaycan sektorunda Əşrəfi - Dan ulduzu - Aypara sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında” Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Statoyl Azərbaycan Əşrəfi Dan Ulduzu Aypara BV və SOCAR-ın Ortaq neft şirkəti arasında Saziş (bundan sonra - Saziş) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Sazişdə iştirak edən Podratçılara verilən Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra Hökumət təminatı) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

**3.** Sazişin əsas mətninə edilmiş on iki (12) Əlavə və SOCAR-ın Ortaq neft şirkətinin yaradılmasına dair Qoşma (bundan sonra Əlavələr) qəbul edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

**4.** Bu Qanun qüvvəyə mindikdən sonra Saziş, Hökumət təminatı və Əlavələr Qanun olurlar. Sazişdə konkret surətdə başqa hallar göstərilməyibsə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul oluna biləcək qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

**5.** Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir, habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin pay iştirakçılarına kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

**6.** Bu Qanun qüvvəyə mindikdən sonra Podratçının (və ya onun hüquq varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçının qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

**7.** Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və sanksiyalar verilir.

**8.** Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 29 iyun 2018-ci il.**

## “Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanını “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 fevral tarixli 1852 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədilə **qərara alıram:**

“Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (III kitab), maddə 609; 2001, N 10, maddə 640; 2003, N 8, maddə 435, N 10, maddə 552; 2004, N 6, maddə 435; 2005, N 2, maddə 64, N 5, maddə 403; 2006, N 7, maddə 590, N 12, maddə 1034; 2007, N 3, maddə 228, N 6, maddə 606, N 11, maddə 1110, N 12, maddə 1246; 2008, N 6, maddə 493; 2009, N 3, maddə 163, N 5, maddə 324; 2010, N 5, maddə 399, N 7, maddələr 610, 628; 2011, N 8, maddə 751; 2012, N 6, maddə 535; 2014, N 6, maddə 626; 2016, N 9, maddə 1464, N 12, maddə 2071; 2017, N 2, maddə 186; 2018, N 1, maddə 43, N 2, maddə 171) 3.19-cu bəndinə “müəssisəsi” sözündən sonra “(xüsusi təyinatlı təhsil müəssisəsi istisna olmaqla)” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 iyul 2018-ci il.**

# Azərbaycan Dünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığın daha da inkişafında maraqlıdır

**Azərbaycan Dünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığın daha da inkişafında maraqlıdır.**

AZƏRTAC xəbər verir ki, bu fikir iyulun 5-də Azərbaycanın Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədovun Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus ilə görüşündə səslənib.



Əli Əhmədov Azərbaycan Hökumətinin Dünya Səhiyyə Təşkilatı ilə mövcud əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirdiyini və əlaqələrin möhkəmləndirilməsi istiqamətində konkret və praktiki addımların atılmasında maraqlı olduğunu vurğulayıb.

Azərbaycanın səhiyyə sistemindən danışan Baş nazirin müavini qeyd edib ki, ölkəmizdə bu sahənin yenidən qurulması və inkişaf etdirilməsi məqsədilə xeyli işlər görülüb. O bildirib ki, Azərbaycan Hökuməti öz vəzifələrinə kifayət qədər məsuliyyətlə yanaşır. Prezident İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb və Şuranın daimi əsaslarla fəaliyyət göstərən katibliyi formalaşıb. Azərbaycan Hökuməti Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələri həyata keçirmək üçün bütün qüvvələrini səfərbər edib və Baş nazirin müavininin Milli Əlaqələndirmə Şurasına sədr təyin olunması bu məsələyə olan diqqətin göstəricisidir. Milli Əlaqələndirmə Şurası qısa vaxt ərzində bir çox mühüm işlər görüb.

Baş nazirin müavini diqqətə çatdırıb ki, Azərbaycan qlobal əməkdaşlıqlara çox böyük əhəmiyyət verir. Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində həyata keçirilən tədbirlərin reallaşmasında BMT-nin verdiyi dəstək böyük önəm kəsb edir.

Görüşdə son illər Azərbaycanda səhiyyə sahəsində həyata keçirilən layihələr, tibbi sığortanın əhəmiyyəti, səhiyyə infrastrukturunun yenilənməsi istiqamətində görülən işlər haqqında məlumat verilib. Diqqətə çatdırılıb ki, bütün bunlar Azərbaycan vətəndaşının layiqli səhiyyə xidməti ilə təmin olunmasına hesablanıb.

Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus ölkəmizdə olmasından və burada gördüyü yüksək qonaqpərvərlikdən məmnunluğunu ifadə edib. Azərbaycanda səhiyyə sahəsində görülən işləri yüksək dəyərləndirdiklərini vurğulayan qonaq bunun yaxşı nəticələrə yol açacağını deyib. Baş direktor bu ilin Azərbaycan üçün əlamətdar olduğunu deyərək, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı təbriklərini çatdırıb.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında müzakirələr aparılıb.

**AZƏRTAC**

# Finlandiyanın xarici ticarət və inkişaf naziri ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



**Azərbaycanda səfərdə olan Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleyninin başçılıq etdiyi nümayəndə heyəti iyulun 5-də Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, abidəsi önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən nümayəndə heyəti Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi, şəhərdə aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.



**AZƏRTAC**

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib

**Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatı üzrə növbəti açıq məhkəmə iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472.1-ci və 1306-cı maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair Şəki Apellyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim S.Salmanovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını, ekspertin rəyini dinləyib, işin materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 470-ci, 472-ci, eləcə də 1146-cı, 1255-ci və 1306-cı maddələrinə uyğun olaraq, borclunun ölümündən sonra, ilk növbədə, mirası qəbul etmiş vərəsələr miras açıldığı gündən onlara çatan miras payı həcmində miras qoyanın kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar. Miras qoyanın kreditorları tərəfindən vərəsələrə qarşı öhdəliyin icrası tələbi irəli sürülərkən, mirasın qəbulu ilə bağlı qanunvericilikdə müəyyən edilmiş müddətlər nəzərə alınmalıdır.

Borclunun ölümü zaminliyin xitamına səbəb olmur. Zaminin ölmüş borclunun kreditorları qarşısında məsuliyyətinin həddi miras əmlakın həcmi ilə məhdudlaşmır. Əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, vərəsələr öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, eləcə də miras əmlakın həcmi vərəsələrə öhdəliyi icra etməyə imkan vermədikdə, zamin kreditor qarşısında tam məsuliyyət daşıyır.

Vərəsələr və zamin borclu öldükdən sonra əsas borcdan əlavə, faiz borcuna görə də məsuliyyət daşıyırlar. Borclunun təqsirli hərəkətləri nəticəsində öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda hesablanmış dəbbə pulunun ödənilməsi ilə bağlı tələb kreditor tərəfindən bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş qaydada vərəsələr və ya zaminə qarşı irəli sürülə bilər. Vərəsələr və ya zaminin təqsirli hərəkətləri nəticəsində öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi təqdirdə kreditor dəbbə pulunun ödənilməsini bu hərəkətləri törətmiş şəxsdən tələb edə bilər.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin zaminliyə xitam verilməsi hallarını nəzərdə tutan 477-ci maddəsinin bu qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

**AZƏRTAC**

# Gənclər və idman naziri Abşeron rayonunda vətəndaşları qəbul edib

**Gənclər və idman naziri Azad Rəhimov iyulun 5-də Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində Sumqayıt şəhərinin və Abşeron, Xızı, Şamaxı, Qobustan rayonlarının sakinlərini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə Azad Rəhimov və Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova Heydər Əliyev Mərkəzinin qarşısında Ümummilli Liderin abidəsi önünə gül dəstələri düzüblər.

Qəbulda ümumilikdə 20-yə yaxın sakinin müraciətləri dinlənilib. Gənclər sahəsinə aid müraciətlər əsasən, qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, gənclərlə bağlı müxtəlif layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, yay-qış istirahət düşərgələrinin təşkili, Gənclər mərkəzlərinin müvafiq avadanlıqla təmin edilməsi və fəaliyyəti məsələləri ilə bağlı olub.

İdman sahəsi üzrə isə fəxri adların verilməsi, idman mərkəzlərinin avadanlıqla təminatı, yeni Olimpiya İdman komplekslərinin, idman mərkəzlərinin tikintisi və təmiri, Uşaq Gənclər və İdman mərkəzlərinin (UGİM) və bölmələrin yaradılması, idmançıların beynəlxalq yarışlarda iştirakı və s. məsələlərlə bağlı müraciətlər edilib.

Müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

**AZƏRTAC**

# Cəbhənin ön xəttində yeni inşa edilmiş infrastruktur obyektinin açılışı olub

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhənin ön xəttində inşa edilmiş infrastruktur obyektinin açılışında iştirak ediblər.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yeni qərargah binası, əsgər yataqxanası və yeməkxanada yaradılan şəraitlə tanış olan nazir hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı müvafiq tapşırıqlar verib.

**AZƏRTAC**



# Azərbaycan ilə Dünya Səhiyyə Təşkilatı arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Azərbaycan ilə BMT-nin ixtisaslaşmış təşkilatı olan Dünya Səhiyyə Təşkilatı arasında əməkdaşlığı müsbət qiymətləndirib. O, Tedros Adhanom Qebreyesusun Dünya Səhiyyə Təşkilatının baş direktoru vəzifəsinə seçilməsindən sonra təşkilat qarşısında müəyyənləşdirdiyi "hamı üçün səhiyyə, qadın və uşaqların müdafiəsi, təşkilat daxili islahatlar" kimi prioritetlərin təqdirəlayiq olduğunu diqqətə çatdırıb.

Baş direktor Tedros Adhanom Qebreyesus Azərbaycanın səhiyyə sahəsində əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirib. O, rəhbərlik etdiyi təşkilat ilə Azərbaycan arasında əməkdaşlıq üçün geniş potensialın olduğunu qeyd edib, Azərbaycanın uğurlu təcrübəsinin digər üzv ölkələr üçün də maraqlı ola biləcəyini deyib. Baş direktor Azərbaycanın dövlət xətti ilə xarici tələbələr üçün təqaüd proqramları nəzərdə tutduğunu yüksək qiymətləndirib, təşkilat çərçivəsində də səhiyyə sahəsində təhsil üzrə təqaüdlərin ayrılması imkanlarına toxunub.

Görüşdə Dünya Səhiyyə Təşkilatında Azərbaycandan olan mütəxəssislərin çalışmaları və Dayanıqlı İnkişaf Məqsədlərinin milli səviyyədə icrası məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Nazir Elmar Məmmədyarov Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi məqsədilə hökumət səviyyəsində əlaqələndirilmiş formada aparılan fəaliyyət barədə həmsöhbətinə məlumat verib.

**AZƏRTAC**

# OECD-nin iclasında Azərbaycanın korrupsiyaya qarşı mübarizə sahəsindəki nailiyyətləri yüksək qiymətləndirilib

**Parisdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının 19-cu plenar iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının IV Monitorinq Raundu üzrə ölkəmizin hesabatı Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Elnur Musayev, Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru Əmir Ocaqverdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti tərəfindən təqdim olunub.

Plenar iclasda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla davam etdirilən islahatların tərkib hissəsi olan antikorrupsiya sahəsində son bir ildə görülmüş işlər barədə ətraflı məlumat verilib.

İşçi görüş çərçivəsində məlumatı qiymətləndirən beynəlxalq ekspertlər qrupu ilə müzakirələr aparılıb.

Plenar iclasda Milli Antikorrupsiya Strategiyasının 2016-2018-ci illər üzrə Fəaliyyət Planının böyük qisminin icra olunması, o cümlədən dövlət qulluğunda şəffaflığın artırılması, korrupsiyaya qarşı təşviqat xarakterli tədbirlərin gücləndirilməsi, bu istiqamətdə fəaliyyətin düzgün əlaqələndirilməsində əldə olunan uğurlar xüsusi qeyd edilib. Eyni zamanda, vətəndaş cəmiyyətinin bu tədbirlərdə iştirakı, dövlət qulluğunda islahatların aparılması, məhkəmə və prokurorluq sistemində etik qaydaların gücləndirilməsi və cavabdehliyin artırılması, əməkdaşların fəaliyyətinin düzgün yoxlanılması və vəzifədə önə çəkilməsi, peşə səviyyəsinin və biliklərinin artırılması üçün hazırlığın düzgün təşkilində hökumətin səyləri qeyd olunub, bu sahədə irəliləyişin əldə edildiyi vurğulanıb.




Məhkəmə sistemi, vətəndaşlara xidmətin göstərilməsi, məlumatların çatımlılığının təmin olunması məqsədilə informasiya texnologiyalarının tətbiqində Azərbaycanın əldə etdiyi nəticələr ən yaxşı təcrübə kimi qiymətləndirilib. Həmçinin dövlət satınalmaları, hüquqi şəxslərin məsuliyyətinin təmin olunması, məlumatların əldə olunması, özəl sektorda dürüstlüyün artırılması və təhsil sahəsində tədbirlərin davam etdirilməsi vacibliyi vurğulanıb.

Azərbaycana dair verilmiş tövsiyələrin böyük qismində görülmüş tədbirlər üzrə əsaslı nailiyyətin əldə olunması barədə yekdil fikrə gəlinib və dövri hesabat qənaətbəxş qiymətləndirilərək qəbul edilib.

Plenar iclas çərçivəsində Azərbaycan mütəxəssisləri gündəlikdə duran digər məsələlərin müzakirəsində xüsusi fəallıq göstəriblər.

Baş idarənin böyük prokuroru Elnur Musayev Ukraynada payların nəzarət zərfi dövlətə məxsus olan müəssisələrin fəaliyyətində səmərəliliyin artırılması üzrə dövri hesabatın 4-cü seqmenti üzrə bir sıra təkliflər səsləndirib. Həmin müəssisələrin fəaliyyətində şəffaflığın artırılması məqsədilə kənar audit yoxlamaların aparılması tələbləri ilə yanaşı, mühasibat uçotu qaydaları üzrə tələblərin gücləndirilməsi, hesabatların ictimaiyyətə açıqlanması, eləcə də müəssisələrdə korrupsiyanın qarşısının alınmasına dair tədbirlər üzrə düzgün və dəqiq meyarların işlənilməsinə dair təkliflər qəbul olunaraq yekun sənəddə nəzərə alınıb. Qırğızıstanın 4-cü Raund Monitorinqi üzrə hesabatında məhkəmə və prokurorluq sistemində şəffaflığın artırılması və korrupsiyanın qarşısının alınması, Özbəkistan Respublikasının hesabatında gömrük sahəsində etik qaydaların tətbiqi, həmçinin sözügedən beynəlxalq mexanizmin ümumi dəyərləndirmə metodologiyası üzrə E.Musayevin təklifləri qəbul edilib.

Təşkilati və informasiya təminatı idarəsinin əməkdaşı Əmir Ocaqverdiyev beynəlxalq ekspertlər qrupunun tərkibində ötən il Tacikistanda apardığı dəyərləndirmənin davamı olaraq plenar iclasda həmin ölkənin dövrü hesabatı üzrə ekspert qismində tövsiyələrin icrasına dair rəy verib. Azərbaycanlı mütəxəssisin irad və təklifləri görüş iştirakçıları tərəfindən qəbul edilərək yekun sənədə salınıb.

İclas çərçivəsində nümayəndə heyətləri katiblik tərəfindən təqdim olunan sektoral təhlillər üzrə hesabatları dinləyərək metodoloji sənəd qismində qəbul ediblər.

**AZƏRTAC**

# Avropa Parlamenti Azərbaycan və Ermənistan ilə bağlı qətnamə qəbul edib

**İyulun 4-də Avropa Parlamenti (AP) tərəfindən Avropa İttifaqı (Aİ) və Ermənistan arasında imzalanmış yeni ikitərəfli sazişə dair qətnamə qəbul edilib.**

Qətnamənin əvvəlində 2017-ci ilin noyabrında Brüsseldə keçirilmiş Şərq Tərəfdaşlığı Sammitinin yekun bəyannaməsi, beynəlxalq sərhədlərin toxunulmazlığını vurğulayan Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə Qlobal Strategiyası qeyd olunur, eləcə də Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstək ifadə edilir, 2017-ci il üzrə AP-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə illik hesabatına istinadlar yer alır.

Sənədin 5-ci bəndində yeni sazişin məhz Aİ və Ermənistan Respublikasının ərazisini əhatə etdiyi vurğulanır və bunun ardınca Avropa Komissiyasına Ermənistan vasitəsilə hər hansı məhsulun qanunsuz şəkildə Avropa İttifaqına ixracının qarşısını almaqla bağlı çağırış edilir. Beləliklə, işğal olunmuş ərazilərimizdə qanunsuz istehsal olunmuş malların Aİ ərazisinə ixracına AP tərəfindən etiraz ifadə edilir. Digər tərəfdən, qətnamədə seçkilərin saxtalaşdırılması, oliqarxik vəziyyət, korrupsiya, ədliyyə sahəsində problemlərə dair çoxsaylı məsələlər əhatəli şəkildə əks olunur. Həmçinin insan hüquqları və media azadlığı, jurnalistlərin təqib olunması, gender bərabərliyi və sair sahələr üzrə tənqidi mövqe ortaya qoyulub.

Sənədin sonunda isə Ermənistanda hələ də fəaliyyət göstərən "Metsamor" atom elektrik stansiyası ilə bağlı Avropa Parlamentinin ciddi narahatlığı vurğulanır.

Həmçinin Azərbaycanla bağlı sənəd də qəbul edilib. Sənəddə qaçqın və məcburi köçkünlərə dair xüsusi bənd əks olunub və burada Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində münaqişə zonalarında yaşayan çoxsaylı qaçqın, məcburi köçkün və mülki şəxslərin dəstəklənməsi istiqamətində hakimiyyət orqanlarının ciddi səylərinə dəstək verilməsinə çağırış edilir.

Sənəddə Azərbaycanın Avropa İttifaqının enerji sahəsində strateji müttəfiqi olduğu vurğulanır.

**AZƏRTAC**

# SOCAR AQŞ-nin dəstəyi ilə MİT-Azərbaycan Qlobal Startap Laboratoriyası fəaliyyətə başlayıb

**SOCAR AQŞ MMC-nin sosial məsuliyyət proqramı çərçivəsində Massaçusets Texnologiya İnstitutu (MİT) ilə birgə həyata keçirdiyi ilk MİT-Azərbaycan Qlobal Startap Laboratoriyasının açılış mərasimi ADA Universitetində keçirilib.**

MMC-dən AZƏRTAC-a bildirilib ki, layihənin əsas məqsədi mobil/veb tətbiqinə əsaslanan startap (yeni texnologiya və innovativ ideyalara əsaslanan yeni müəssisələrin təsis olunması) və özəl sahibkarlığın inkişafına töhfə vermək, tələbələr üçün sahibkarlıq və kompüter proqramlaşdırma sahələri üzrə intensiv kurslar təşkil etməkdir.

MİT-nin müsabiqə komissiyası proqramda iştirakla bağlı müraciət etmiş müxtəlif ali təhsil müəssisələrində təhsil alan gənclər arasından ən istedadlı 30 tələbəni seçərək onlara 7 həftəlik intensiv kursda iştirak etmək hüququ verib.

Proqramda ADA Universitetinin, Xəzər Universitetinin, Bakı Mühəndislik Universitetinin, Bakı Ali Neft Məktəbinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin və Bakı Dövlət Universitetinin istedadlı tələbələri ilə yanaşı, dünyanın tanınmış universitetlərində təhsil alan azərbaycanlı tələbələr də var.



İlk MİT-Azərbaycan Qlobal Startap Laboratoriyasının açılış mərasimində çıxış edən ADA Universitetinin rektoru, professor Hafiz Paşayev deyib ki, startap laboratoriyasının fəaliyyətə başlaması ölkənin sahibkarlıq ekosisteminin təkmilləşməsinə əhəmiyyətli dərəcədə təkan verəcək: “Azərbaycanın müxtəlif ali təhsil müəssisələrində təhsil alan, xarici dil və yüksək texniki biliklərə malik olan gənclərin MİT-Azərbaycan Qlobal Startap Laboratoriyasında bir araya gəlməsi çox xoşdur. Xüsusilə də iştirakçılar arasında gender balansının gözlənilməsi, qızlarımızın da fəal olaraq kursda iştirak etmələri təqdirəlayiqdir. ADA Universitetinin İnnovasiyalar Mərkəzi də startap laboratoriyasının bizim universitetdə fəaliyyətə başlaması fürsətindən yararlanaraq həm işçilərini bu proqrama cəlb edəcəklər, həm də ideyaların inkişaf etdirilməsi baxımından zəngin təcrübə qazanmış olacaqlar”.

SOCAR AQŞ MMC-nin baş direktoru Ramin İsayev proqramda iştirak etmək hüququ qazanmış tələbələri təbrik edib, onlara tədris müddətində müvəffəqiyyətlər arzulayaraq deyib: “Bildiyiniz kimi “kompüter texnologiyalarının mərkəzi” adlandırılan Massaçusets Texnologiya İnstitutu elm və texnologiya və süni intellekt sahələri üzrə dünya lideridir. MİT çoxsaylı elmi kəşflərin yarandığı məkandır. Təsadüfü deyil ki, biz məhz bu məşhur elm ocağının startap laboratoriyasını pilot layihə olaraq Azərbaycana, siz gənclər üçün gətirmişik. İntensiv kurs ərzində siz, ideyalarınızı təkmilləşdirmək üçün çərçivə prinsiplərini öyrənəcəksiniz. Bu biliklər sayəsində siz öz ideyalarınızı yerli və milli səviyyədən qlobal səviyyəyə daşıya biləcəksiniz. Məqsədimiz siz gənclərin vasitəsilə ölkəmizin gənc innovativ sahibkarlıq mühitinin inkişafına dəstək verməkdir”.

MİT-Azərbaycan Startap Laboratoriyasının qrup lideri Katherine Curiel Azərbaycanda startap laboratoriyasının ilk intensiv kurs təlimatçısı olduğundan qürur duyduğunu qeyd edib: “MİT məzunu olaraq müxtəlif ölkələrdə işləmək, ən yaxşı təcrübə və müasir yanaşmaları gənclərə aşılamaq böyük məsuliyyət tələb edir. İnanıram ki, azərbaycanlı gənclər onlar üçün yaradılmış bu nadir fürsətdən lazımınca yararlanacaqlar. Bu pilot layihənin nəticəsi yeni təşəbbüslərin yaranmasına və daha geniş vüsət almasına böyük təkan verəcək”.

Qeyd edək ki, tədris müddətində gənclərə startap biznesinin təsis edilməsi ilə bağlı dəstək veriləcək. Gənc ideya müəllifləri investorlar, startap və inkişaf mərkəzlərinin nümayəndələri və ölkəmizin startap ekosisteminin aparıcı qurumları ilə görüşəcək. Məzunlar MİT-nin qlobal startap və ideya müsabiqələrində iştirak edə biləcəklər. Bununla da qlobal startap laboratoriyası gənc sahibkarların qlobal maliyyə, innovasiya və startap ekosistemlərinə çıxış imkanlarını genişləndirəcək.

SOCAR AQŞ milli qazma müəssisəsi olaraq neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində mövcud imkanların artırılmasına yönəlmiş təşəbbüs və proqramları dəstəkləyir. SOCAR AQŞ ali məktəblərin 3-cü və 4-cü kurslarında, eləcə də magistr dərəcəsində təhsil alan tələbələr üçün Yay Təcrübə Proqramını həyata keçirir, həmçinin neft-qaz ixtisası üzrə təhsil alan tələbələr üçün SOCAR AQŞ Tələbə Təqaüdü təsis edilib.

SOCAR AQŞ-nin səhmdarları SOCAR və “Nobel Oil Services” şirkətləridir.

**AZƏRTAC**

# Milli Onkologiya Mərkəzində Dünya Səhiyyə Təşkilatının baş direktoru ilə görüş keçirilib

**İyulun 5-də Milli Onkologiya Mərkəzinin (MOM) baş direktoru, akademik Cəmil Əliyev ölkəmizdə səfərdə olan Dünya Səhiyyə Təşkilatının (DST) baş direktoru, doktor Tedros Adhanom Qebreyesus ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdən əvvəl DST-nin baş direktoru və onu müşayiət edən şəxslər MOM-un Uşaq Onkoloji Klinikasında şüa terapiyası, reanimasiya və intensiv terapiya şöbələrinə baş çəkiblər. Onlar xəstələrin müalicəsində tətbiq edilən müasir avadanlıqla tanış olub, müalicə proseslərini izləyiblər.

Görüşdə akademik Cəmil Əliyev qonaqlara MOM-un elmi-klinik fəaliyyəti haqqında ətraflı məlumat verib. Bildirilib ki, Azərbaycan Prezidentinin diqqət və qayğısı sayəsində Mərkəz yeni tibb texnikası, o cümlədən mobil diaqnostika kompleksi ilə təchiz edilib. Həmçinin onkoloji xəstələrin şiş əleyhinə preparatlarla təmin olunmasında problemlər aradan qaldırılıb. Mərkəzin əməkdaşları yüksək keyfiyyətli onkoloji xidmətlər göstərir, xəstələrdə bədxassəli şişlərin erkən diaqnostikasını, operativ cərrahi, şüa və dərman preparatları ilə müalicəsini həyata keçirir, habelə mövcud müalicə üsullarının təkmilləşdirilməsi məqsədilə genişmiqyaslı elmi tədqiqatlar aparırlar. MOM-un müasir standartlara cavab verən və yaraşıqlı korpusu ən müasir tibbi avadanlıqla təchiz olunub. Hazırda Milli Onkologiya Mərkəzi respublikanın əhalisinə yüksəkixtisaslı onkoloji yardımın həyata keçirilməsində elmi-metodik və profilaktik işlərin koordinasiyası ilə məşğul olan əsas qurumdur.



Baş direktor deyib ki, burada aparılan müalicənin əsas məqsədi xəstələrin ömrünün uzadılması, imkan daxilində onların tam şəfa tapmasıdır. Məlumat verilib ki, 1200 yerlik Mərkəz müasir standartlara cavab verən tibbi avadanlıq və ləvazimatlarla təchiz olunub, xəstələrin 35 faizi onkoloji, qalan 65 faizi isə diaqnostik göstəricilər üzrə müalicə alır.

Akademik Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın MOM-un Uşaq Onkoloji Klinikasının yaradılmasında müstəsna xidmətlərini də vurğulayıb.

Diqqətə çatdırılıb ki, son illər MOM onkoloji xəstələrin müalicəsi üçün zəruri olan yeni texnologiyalar istehsal edən dünyanın aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edir. Belə ki, 2014-cü il oktyabrın 8-də MOM və bədxassəli şişlərin radioterapiyası üçün müasir texnologiyaları hazırlayan və istehsal edən ABŞ-ın “Varian Medikal Sistem” şirkəti arasında əməkdaşlıq sazişi imzalanıb. Bununla da Milli Onkologiya Mərkəzi rəsmi referens-mərkəz statusuna malik olub. İmzalanmış sənəd tərəfdaşlar arasında əməkdaşlığın genişləndirilməsinə, daha qısa müddətə Azərbaycana müasir texnologiyaların gətirilməsinə, xarici mütəxəssislərlə ətraflı fikir mübadiləsi aparılmasına imkan verir. Həmçinin saziş Milli Onkologiya Mərkəzində onkoloji xəstələrə göstərilən yüksək səviyyəli xidmətin dünyanın digər aparıcı klinikaları tərəfindən tanınmasını təsdiq edir. Bundan başqa, 2015-ci ilin noyabrında Azərbaycan MOM və M.D.Anderson adına Onkoloji Mərkəz (USA, MD Anderson Cancer Center), 2017-ci ilin oktyabrında isə şüa terapiyası zamanı xəstələrin cəlb olunması və yerləşdirilməsini təmin edən sistem və avadanlığın dünyada ən iri təchizatçısı olan Belçikanın “Orfit İndustries” şirkəti arasında uzunmüddətli əməkdaşlığa dair müqavilələr imzalanıb.



DST ilə Azərbaycan arasında bir sıra mühüm sahələrdə əməkdaşlığın yüksək səviyyəsindən məmnunluğunu ifadə edən Tedros Adhanom Qebreyesus əlaqələrin gələcəkdə də genişləndirilməsinin zəruriliyini diqqətə çatdırıb. DST-nin baş direktoru qeyd edib ki, Milli Onkologiya Mərkəzində onkoloji xəstələrin yüksək səviyyədə müalicəsi üçün yaradılmış müasir şərait dünya standartlarına tam cavab verir. O, burada onkoloji xəstəliyin profilaktikası və müalicəsi üzrə aparılan işləri yüksək qiymətləndirib. “Zəngin maddi-texniki bazaya və güclü kadr potensialına malik Milli Onkologiya Mərkəzini dünyanın aparıcı onkoloji mərkəzləri ilə bir cərgəyə qoymaq olar. Bu gün mən Uşaq Onkoloji Klinikasına baş çəkdim və burada qorxulu xəstəlikdən əziyyət çəkən yeddi-səkkiz yaşlı oğlanla tanış oldum. Bu uşaqla qısa ünsiyyət zamanı mən onun barəsində çox şey öyrəndim: o, ruhdan düşmür və tam müalicə olunacağına inanır, hətta gələcəkdə polis əməkdaşı olmaq istəyir. Bildiyimiz kimi, bir çox valideyn öz uşağının xəstəliyi xəbərinə dözə bilmir. Onlar bu xəbəri aldıqda gələcəkdə nə edəcəklərini və necə yaşayacaqlarını bilmirlər. Lakin sizin həkimlərlə söhbət əsnasında öyrəndim ki, onlar uşaq onkologiyası şöbəsinə gəldikləri zaman müalicə aparıldığını və səhhəti yaxşılaşanları görürlər. Mən onlara ümid və mübarizə aparmağa güc verdiyiniz üçün Sizə və MOM kollektivinə minnətdaram”, - deyə DST-nin baş direktoru əlavə edib.

Görüşdən sonra doktor Tedros Adhanom Qebreyesus Milli Onkologiya Mərkəzinin muzeyi ilə tanış olub, MOM-un fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.

Görüşdə Azərbaycan Respublikasının BMT-nin Cenevrə bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Vaqif Sadıqov iştirak edib.

**AZƏRTAC**

*Professor Gülçöhrə Məmmədova:*

# İKT-nin tətbiqi yeni binaların tikintisini insan əməyi olmadan mümkün edir





**İyulun 5-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU), Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) İdarəetmə Sistemləri İnstitutunun birgə təşkilatçılığı ilə “İnşaatda informasiya texnologiyaları və sistemlərinin tətbiqi imkanları və perspektivləri” mövzusunda beynəlxalq elmi-praktik konfrans öz işinə başlayıb.**

AzMİU-dan AZƏRTAC-a bildiriblər ki, konfransda Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri Kamran İmanov, nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, AMEA İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru, professor Misir Mərdanov, İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun rəhbəri Elçin Zeynalov iştirak ediblər. Konfransa, həmçinin AMEA-nın müxtəlif institutlarından, ali təhsil müəssisələrindən, Özbəkistandan nümayəndələr qatılıblar.

AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova konfransın mövzusunun aktuallığını qeyd edib. Bildirilib ki, informasiya-kommunikasiya texnologiyaları (İKT) əsrində yaşadığımız bir zamanda bu cür konfransın keçirilməsi böyük əhəmiyyət daşıyır.

Rektor İKT-nin inşaata tətbiqinin inşaat şirkətlərinin işində yarada biləcəyi üstünlüklər, bu sektorun dövrün çağırışlarına operativ uyğunlaşması üçün yeni üsulların yaratdığı imkanlar və qeyd olunan texnologiyanın tətbiqi vasitəsilə rahatlıq, mobillik və operativliyin artırılması barədə məlumat verib. Qeyd edilib ki, bu gün inşaat sahəsində informasiya texnologiyalarının tətbiqi tikilən yeni binaların, şəhərcik komplekslərinin tikintisini insan əməyi olmadan mümkün edir.

Çıxış edənlər konfransın işinə uğurlar arzulayıblar.

Konfransın plenar iclasında AMEA İdarəetmə Sistemləri İnstitutunun direktoru, AzMİU-nun informasiya texnologiyaları və sistemləri kafedrasının müdiri, akademik Telman Əliyevin, özbəkistanlı qonaq İbrahiməli Normatovun mövzu ilə bağlı məruzələri dinlənilib.

İki gün davam edəcək konfransda 110 məruzənin dinlənilməsi nəzərdə tutulub.

**AZƏRTAC**

*Mətin Yıldırım:*

# Azərbaycan Ordusunun qüdrətlənməsi Türkiyə ictimaiyyətində ruh yüksəkliyini daha da artırır



**Azərbaycan Silahlı Qüvvələri tarixi yüksəliş mərhələsinə qədəm qoyub. Bakıda keçirilən hərbi parad Azərbaycan Ordusunun hərbi qüdrətini nümayiş etdirməklə yanaşı, bir daha düşmənə göz dağı verib.**

Bu fikirləri AZƏRTAC-a müsahibəsində sosial elmlər üzrə ekspert, türkiyəli yazıçı Mətin Yıldırım deyib.

M.Yıldırım qeyd edib ki, Azərbaycan Ordusunun yaranmasının 100 illik yubileyi münasibətilə keçirilən möhtəşəm hərbi parad başa çatandan sonra Türkiyənin “Solo Türk” və “Türk Ulduzları” aviaqrupuna daxil olan təyyarələrin Bakı buxtası üzərində nümunəvi uçuşlar keçirməsi Azərbaycanın və Türkiyənin inkişafını, uğurlarını istəməyən bütün məkrli qüvvələrə açıq mesajdır. Bu uçuşlar tarixi birliyimizin, qardaşlığımızın müasir formada göstəricisidir.

Ekspert deyib: “Azərbaycan Ordusunun qüdrətlənməsi Türkiyədəki ictimaiyyət arasında ruh yüksəkliyini daha da artırır. Peşəkar ordu müstəqilliyin və xalqın təhlükəsizliyinin qarantıdır. İftixar edirik ki, Azərbaycan Ordusu bütün parametrləri ilə inkişaf etməkdədir”.

**AZƏRTAC**

# İranla əmək, məşğulluq, sosial müdafiə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə arasında görüş olub.**

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, ölkəmizdə aparılan siyasətin sosialyönümlü olduğunu vurğulayan S.Babayev Azərbaycan Prezidenti cənab İlham Əliyevin sosial inkişaf kursunun nailiyyətlərini, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və sosial cəhətdən həssas qruplara dövlət qayğısının artırılması, məşğulluğun təminatı istiqamətlərində əldə olunan irəliləyişləri diqqətə çatdırıb. Azərbaycanla İran arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edən S.Babayev 2016-cı ildə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İran İslam Respublikasının Kooperasiya,



Əmək və Sosial Rifah Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalandığını bildirib. Nazir iki ölkənin əmək, məşğulluq, sosial müdafiə sahəsində əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu, müvafiq fəaliyyət sahələrində məlumat və təcrübə mübadilələrinin aparılmasının əhəmiyyətli olduğunu qeyd edib. Nazir İslam Əməkdaşlıq Təşkilatının Bakıda yaradılması nəzərdə tutulan Əmək Mərkəzinin Təşkilata üzv ölkələr, o cümlədən Azərbaycan və İran arasında əmək və sosial müdafiə sahələrində əməkdaşlıq əlaqələrinin inkişafında mühüm rol oynayacağını vurğulayıb.

C.Cahangirzadə iki ölkənin dost münasibətlərinə əsaslanan əməkdaşlıq əlaqələrinin daim genişləndiyini vurğulayıb. Səfir əmək və sosial müdafiə sahələrində bu əlaqələrin, təcrübə mübadilələrinin genişlənməsinə xüsusi önəm verdiklərini diqqətə çatdırıb. O, bu sahədə səfirlik tərəfindən məqsədyönlü işlərin görüləcəyini bildirib.

**Mustafa KAMAL,**
**“Respublika”.**

# Beş ayda Azərbaycan ilə Finlandiya arasında ticarət dövriyyəsi 3,5 dəfə artıb

**Bu ilin yanvar-may aylarında Azərbaycan ilə Finlandiya arasında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrünə nisbətən 3,5 dəfə artıb. Azərbaycanda sənaye, ticarət, xidmət və tikinti sahələrində 13 Finlandiya şirkəti qeydiyyatdan keçib.**

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleyninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə deyib.

Şahin Mustafayev Azərbaycan iqtisadiyyatı və onun prioritet istiqamətləri, iqtisadiyyatın şaxələndirilməsi, eləcə də iqtisadi sahədə həyata keçirilən kompleks islahatlar, yaradılmış əlverişli biznes və investisiya mühiti barədə məlumat verib. Qeyd edib ki, Avropa İttifaqı ölkələri ilə keçirilən görüşlər, biznes forumlar, qarşılıqlı səfərlər əməkdaşlığın inkişafına, iş adamları arasında əlaqələrin genişlənməsinə töhfə verir. Azərbaycan Avropa İttifaqı ölkələri, o cümlədən Finlandiya ilə əlaqələrin inkişafında maraqlı olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan və Finlandiya arasında ticarət dövriyyəsi 2017-ci ildə 19,2 milyon dollar təşkil edib. Bu ilin yanvar-may aylarında Azərbaycan-Finlandiya ticarət dövriyyəsi ötən ilin müvafiq dövrünə nisbətən 3,5 dəfə artıb. Azərbaycanda sənaye, ticarət, xidmət və tikinti sahələrində 13 Finlandiya şirkəti qeydiyyatdan keçib. Bildirilib ki, Avropa İttifaqı ilə, o cümlədən Finlandiya ilə müxtəlif proqramlar (Tvinninq, TAİEX və s.) çərçivəsində də uğurlu əməkdaşlıq həyata keçirilir.

Görüşdə ölkələrimiz arasında biznes əlaqələrinin genişləndirilməsi, qarşılıqlı investisiya yatırılmasının və ticarətin həcminin artırılmasının önəmi qeyd edilib, Azərbaycanda həyata keçirilən infrastruktur layihələrində, sənaye parklarında Finlandiya şirkətlərinin iştirak imkanlarını, energetika, ekologiya, peşə təhsili sahəsində əməkdaşlıq potensialını diqqətə çatdırılıb. Nəqliyyat dəhlizləri barədə məlumat verən nazir Şahin Mustafayev qeyd edib ki, Finlandiya Azərbaycanın geniş nəqliyyat infrastrukturundan və tranzit potensialından, Bakı-Tbilisi-Qars və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarından yararlana bilər.

Finlandiyanın xarici ticarət və inkişaf naziri xanım Anne-Mari Viroleynin ölkəsinin Azərbaycanla əməkdaşlığa önəm verdiyini bildirib. Xanım Anne-Mari Viroleynin Bakıya səfəri çərçivəsində keçirilən görüşlərin, aparılan müzakirələrin əlaqələrin genişlənməsində əhəmiyyətini vurğulayıb.

Görüşdə iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətləri barədə müzakirələr aparılıb.

**AZƏRTAC**

# AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

## *Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472.1 və 1306-cı maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair*

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun

# QƏRARI

**4 iyun 2018-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Şəki Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri Ələddin Məcidov və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin böyük məsləhətçisi Fərid Hacıyevin,

ekspert Bakı Dövlət Universitetinin Mülki hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Azad Talıbovun,

mütəxəssis Bakı Apellyasiya Məhkəməsinin hakimi İsmayıl Xəlilovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472.1 və 1306-cı maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair Şəki Apellyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Salmanovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### MÜƏYYƏN ETDİ:

Şəki Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək ölmüş şəxsin hüquq varislərinin kreditorlar qarşısında hansı həcmdə məsuliyyət daşıması, zaminlərin ölmüş şəxsin öhdəliklərinə görə mülki məsuliyyətinin olub-olmaması, məsuliyyətin olacağı təqdirdə onun hansı həcmdə və hansı vaxtdan yaranması və yaxud borclunun ölümü ilə zaminliyə xitam verilib-verilməməsi məsələlərinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra - Mülki Məcəllə) 472.1 və 1306-cı maddələrinin tələbləri baxımından şərh olunmasını xahiş etmişdir.

Müraciətdə göstərilir ki, "AccessBank" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra - "AccessBank" QSC) Qəbələ Rayon Məhkəməsində iddia qaldıraraq Cumar Ağayev, Knyaz Məmmədov və digərlərindən müştərək qaydada bankın xeyrinə 6.249,39 ABŞ dolları əsas, 1.072,30 ABŞ dolları faiz və 1.400,67 ABŞ dolları cərimə olmaqla, cəmi 8.722,36 ABŞ dolları məbləğində kredit borcunun tutulması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

İddia tələbi onunla əsaslandırılmışdır ki, kreditor ilə borclu C.Ağayev arasında 21 may 2013-cü il tarixində bağlanmış kredit müqaviləsinə görə 120 ay müddətinə 30.000 ABŞ dolları məbləğində kredit xətti açılmışdır. 25 fevral 2014-cü il tarixli kredit razılaşması əsasında 24 ay müddətinə aylıq 2,25 faiz olmaqla 13.000 ABŞ dolları məbləğində kredit verilmişdir. Borclu 13 sentyabr 2015-ci il tarixində vəfat etdiyindən kredit borcu və faiz borcundan ibarət ödənilməli olan vəsaitlər banka ödənilməmiş və onun 6.249,39 ABŞ dolları məbləğində borcu qalmışdır. Qeyd olunan kredit müqaviləsi üzrə borclunun öhdəliklərinin icrasının təmin olunması üçün zaminlik müqavilələri bağlanmış, həmin müqavilələrə görə K.Məmmədov, Y.Ağayev, M.Əliyeva və N.Əzimov öz üzərlərinə borclu C.Ağayev ilə birgə məsuliyyət götürmüşlər.

Cavabdeh C.Ağayev vəfat etdiyindən Qəbələ Rayon Məhkəməsinin 23 yanvar 2017-ci il tarixli qərardadı ilə o, hüquq varisləri olan arvadı Ç.Ağayeva, uşaqları S.Ağayev və E.Ağayev ilə əvəz edilmişdir.

Qəbələ Rayon Məhkəməsinin 29 avqust 2017-ci il tarixli qətnaməsi ilə iddianın qismən təmin edilməsi, hüquq varisləri Ç.Ağayeva, S.Ağayev və E.Ağayevdən müştərək qaydada "AccessBank" QSC-nin xeyrinə 6.249,39 ABŞ dolları məbləğində kredit borcunun tutulması, iddianın cavabdeh olan zaminlər K.Məmmədov və qeyrilərinə aid hissədə təmin edilməməsi qət edilmişdir.

Birinci instansiya məhkəməsi iddia tələbini həmin hissədə rədd edərkən qətnaməsini onunla əsaslandırmışdır ki, zaminlik müqaviləsi aksessor xarakterli olduğundan, kreditorun zaminə qarşı tələb irəli sürməsi üçün əsas öhdəlik pozulmalıdır, hazırkı işdə isə C.Ağayevin öldüyü vaxtadək əsas öhdəlik pozulmadığından Mülki Məcəllənin 442, 448.1, 470, 472.1, 739.1 və 1306.1-ci maddələri tətbiq edilməlidir.

"AccessBank" QSC apellyasiya şikayəti verərək birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsi, əsas borcun, faiz və cərimənin C.Ağayevin hüquq varisləri və zaminlərindən müştərək qaydada tutulması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

Şəki Apellyasiya Məhkəməsi mülki işə baxarkən qanunvericiliyin müvafiq normalarında qeyri-müəyyənliklərin və həmin məsələlərlə bağlı məhkəmə təcrübəsində müxtəlif yanaşmaların olduğunu nəzərə alaraq, Mülki Məcəllənin bəzi maddələrinin Konstitusiya Məhkəməsi tərəfindən şərh edilməsi zərurətinin yarandığı qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, müraciətdə qaldırılan məsələlərə aydınlıq gətirilməsi üçün, ilk növbədə, mülki qanunvericiliyin öhdəlik hüququ, borc, zaminlik müqaviləsi, eləcə də vərəsəlik hüququ ilə bağlı bir sıra normaları təhlil edilməlidir.

Öhdəlik hüquq münasibətləri əmlak xarakterlidir və səlahiyyətli şəxsin mənafeyi bilavasitə borclu şəxsin üzərinə düşən vəzifələri yerinə yetirməsi ilə təmin olunur.

Mülki Məcəllənin 385.1-ci maddəsinə görə, öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və i.a. və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır.

Mülki Məcəllənin 386.1-ci maddəsinə əsasən, öhdəliyin zərər vurulması, əsassız varlanma və ya bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisna olmaqla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır. Müqavilə öhdəlik hüquq münasibətlərinin yaranmasını şərtləndirən mühüm hüquqi faktlardan biridir. Həmin Məcəllənin 389.1-ci maddəsinə görə, mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması müqavilə sayılır. Beləliklə, tərəflər müqavilə bağlamaqla maraqlarına, mənafelərinə uyğun hüquq və vəzifələr müəyyən edirlər. Müqavilənin məqsədini isə tərəflərin öz vəzifəsini, yəni öhdəliyini icra etməsi təşkil edir.

Müqavilədən yaranan öhdəliklərin növlərindən biri borc müqaviləsindən əmələ gələn öhdəliklərdir. Mülki Məcəllənin 739-cu maddəsinə müvafiq olaraq, borc müqaviləsinə görə, iştirakçılardan biri (borc verən) pula və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər iştirakçıya (borc alana) keçirməyi öhdəsinə götürür, digər iştirakçı (borc alan) isə aldıqlarını müvafiq olaraq pul və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borc verənə qaytarmağı öhdəsinə götürür. Borc müqaviləsinin predmeti hər hansı pul məbləği olduqda, o, kredit müqaviləsi adlandırılır.

Kredit müqaviləsinə əsasən, kreditor müqavilə ilə nəzərdə tutulmuş həcmdə və şərtlərdə pulun (kreditin) borcluya verilməsi öhdəliyini, borclu isə bu məbləğin qaytarılması və faizlərin ödənilməsi öhdəliyini öz üzərinə götürür.

İqtisadi dövriyyənin normal fəaliyyət göstərməsi, sabitlik və dayanıqlılığın, müqavilə hüquq münasibətləri iştirakçılarının qarşılıqlı inam və etimadının təmin edilməsi üçün öhdəliklərin vicdanla icra edilməsi zəruridir. Öhdəliklərin icra edilməməsi, o cümlədən lazımınca icra edilməməsi riskinin azaldılması üçün Mülki Məcəllənin XXIV fəslində təminat üsulları nəzərdə tutulmuşdur. Məcəllənin 460.1-ci maddəsinə görə, öhdəliklərin icrası girov, dəbbə pulu, borclunun əmlakının saxlanması, zaminlik, qarantiya, beh ilə və bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulan digər üsullarla təmin edilə bilər.

Mülki dövriyyədə öhdəliklərin icrasının təmin edilməsinin daha çox istifadə olunan üsulu kimi zaminlik müqaviləsi üzrə zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür (Mülki Məcəllənin 470.1-ci maddəsi). Zaminlik müqaviləsi kreditorla zamin arasında bağlanılır və zamin əsas borclunun öz öhdəliyini icra etməməsi və ya lazımınca icra etməməsi halında, həmin öhdəliyi icra edəcəyinə dair öz üzərinə vəzifə götürür. Bununla da gələcəkdə əsas borclu tərəfindən öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda kreditor zaminə qarşı həmin öhdəliyin icrası barədə tələb irəli sürmək hüququ əldə etmiş olur. Zaminlik müqaviləsi əsas öhdəlikdən asılı olan aksessor xarakterli müqavilədir, əsas müqavilənin etibarsız hesab edilməsi və ya xitamı, öz növbəsində, bu müqavilənin də xitamına səbəb olur.

Mülki Məcəllənin 472-ci maddəsində göstərilir ki, borclu zaminliklə təmin edilmiş öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, əgər bu Məcəllədə və ya zaminlik müqaviləsində zaminin subsidiar məsuliyyəti nəzərdə tutulmayıbsa, zamin və borclu kreditor qarşısında birgə məsuliyyət daşıyırlar. Əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, faizlərin, borc tutulması üzrə məhkəmə xərclərinin və borclunun öhdəliyi icra etməməsi və ya lazımınca icra etməməsi nəticəsində kreditora dəyən digər zərərin əvəzinin ödənilməsi də daxil olmaqla, zamin kreditor qarşısında borclu ilə eyni həcmdə məsuliyyət daşıyır.

Göründüyü kimi, qanunverici zaminin məsuliyyətinin iki növünü fərqləndirmişdir:

- birgə məsuliyyət;
- subsidiar məsuliyyət.

Birgə (solidar, latınca "solidus"- tam, bütöv) məsuliyyətin başlıca cəhəti ondan ibarətdir ki, zaminlik müqaviləsi üzrə bu məsuliyyət növü razılaşdırıldığı halda kreditor əsas öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi təqdirdə öz istəyi və mülahizəsi ilə tələbini, eyni zamanda, həm əsas borcluya, həm də birgə məsuliyyət daşıyan zaminə və ya onlardan birinə qarşı yönəldə bilər.

Subsidiar (latınca "subsidiarius" - ehtiyat, yardımçı) məsuliyyət zamanı zaminliklə təminat altına alınmış öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi təqdirdə kreditor, ilk növbədə, əsas borcluya qarşı tələb irəli sürməli, onun tərəfindən öhdəliyin icrasının təmin edilməsi üçün mümkün vasitələrdən istifadə etməli, məhkəmədə iddia qaldıraraq borclunun müqavilədən irəli gələn vəzifələrinin məcburi icrasına və (və ya) dəymiş zərərin əvəzinin ödənilməsinə yönəlmiş zəruri hərəkətləri etməlidir. Yalnız bundan sonra öhdəliyin icra edilməsi ilə bağlı tələb subsidiar məsuliyyət daşıyan zaminə qarşı irəli sürülə bilər.

Zaminliyin xitamı əsasları isə Mülki Məcəllənin 477-ci maddəsində nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən, zaminliyə aşağıdakı hallarda xitam verilir:

- zaminliyin təmin etdiyi öhdəliyə xitam verildikdə, habelə zaminin razılığı olmadan həmin öhdəlik dəyişdirildikdə və bu dəyişdirilmə onun məsuliyyətinin artmasına və ya onun üçün digər əlverişsiz nəticələrə səbəb olduqda;
- əgər zamin yeni borclu üçün cavabdeh olmaq barəsində kreditora razılıq verməmişsə, zaminliklə təmin edilmiş öhdəlik üzrə borc başqa şəxsə keçirildikdə;
- kreditor borclunun və ya zaminin təklif etdiyi lazımi icranı qəbul etməkdən imtina etdikdə;
- zaminlik müqaviləsində göstərilmiş onun verilmə müddəti qurtardıqda. Belə müddət təyin edilmədikdə zaminliyə onun təmin etdiyi öhdəliyin icrası vaxtının çatdığı gündən bir il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir. Əsas öhdəliyin icrası müddəti göstərilmədikdə və müəyyənləşdirilə bilmədikdə və ya tələbetmə məqamı ilə müəyyənləşdirilə bildikdə zaminliyə zaminlik müqaviləsinin bağlandığı gündən iki il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir.

Göründüyü kimi, zaminlik müqaviləsinin xitamı əsaslarının dairəsi məhdud olmaqla qanunvericilikdə dəqiq müəyyən edilmişdir. Mülki Məcəllənin 477-ci maddəsində borclunun ölümü zaminlik müqaviləsinə xitam verilməsi əsası kimi nəzərdə tutulmadığından, borclu öldüyü halda da zamin təmin etdiyi öhdəliyə görə məsuliyyətli olmaqda davam edir. Bu həm də ondan irəli gəlir ki, zaminlik müqaviləsi ilə zamin kreditor qarşısında əsas müqavilə üzrə öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi riskini öz üzərinə götürür və bu riskin reallaşacağı təqdirdə kreditora mənafeyini təmin edəcəyinə dair zəmanət verir. Yəni borclunun ölümü səbəbindən əsas öhdəliyin icra edilməməsi də zaminin təminat verdiyi risklər dairəsinə daxildir.

Həmçinin qeyd olunmalıdır ki, bir çox hallarda zamin şəxsi münasibətlərdən irəli gələrək borclunun öhdəliyinin icrası ilə bağlı kreditor qarşısında məsuliyyət götürür. Lakin zaminlə borclu arasında mövcud olan bu münasibətlər zaminlik müqaviləsinin hüquqi əsasını təşkil etmir. Bu müqavilənin hüquqi əsasını zaminin əsas öhdəliyin icra ediləcəyinə dair məsuliyyəti üzərinə götürməsi, kreditora öhdəliyin icrasına dair zəmanət verməsi təşkil edir.

Müraciətedən göstərir ki, bəzən borclunun ölümü və miras əmlakın vərəsələr tərəfindən qəbulu borcun başqa şəxsə keçirilməsi kimi qiymətləndirilir və zamin yeni borclu üçün cavabdeh olmaq barəsində kreditora razılıq vermədikdə, zaminliklə təmin edilmiş öhdəlik üzrə borcun başqa şəxsə keçirilməsi əsası ilə zaminlik müqaviləsinə xitam verilir. Bununla bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, Mülki Məcəllənin 477-ci maddəsində nəzərdə tutulmuş "borc başqa şəxsə keçirildikdə" ifadəsi borclunun öz iradəsi ilə əsas müqavilə üzrə hüquq və öhdəliklərini başqa şəxsə keçirməsi halını ehtiva edir. Belə ki, Mülki Məcəllənin 522-ci maddəsinə görə, kreditor ilə müqaviləyə əsasən öhdəlik üçüncü şəxsə verilə bilər; bunun nəticəsində o, əvvəlki borclunu əvəz edir. Əgər borclu ilə öhdəliyin üçüncü şəxsə veriləcəyi barədə razılaşma əldə edilərsə, bu, yalnız kreditorun icazəsi ilə etibarlı olur. Göründüyü kimi, müqavilə üzrə borclunun hüquq və vəzifələrinin üçüncü şəxsə keçirilməsi borclunun iradəsi və kreditorun buna razılıq verməsi ilə baş verir. Bu halda həmin müqavilənin icrasını təmin etmək məqsədi ilə bağlanmış zaminlik müqaviləsinin hüquqi qüvvəsinin davam etməsi üçün zaminin razılığı mütləqdir. Borclunun ölümü halında isə onun hüquq və vəzifələri universal hüquq varisliyi qaydasında mirası qəbul etmiş vərəsələrə keçmiş olur. Yəni bu halda əsas müqavilə üzrə hüquq və vəzifələr tərəflərin iradəsindən asılı olmayaraq, borclunun ölümü və vərəsələrin mirası qəbul etməsi ilə sonunculara keçmiş olur.

Borclunun ölümü ilə onun öhdəliklərinin aradan qalxmasının və bununla da bağlanmış müqavilələrin hüquqi təminatdan məhrum olmasının qarşısının alınmasına xidmət edən institutlardan biri vərəsəlik institutudur. Vərəsəlik hüququ ölmüş şəxsin əmlakının və bununla bağlı hüquq və vəzifələrinin qanun üzrə və ya vəsiyyət üzrə vərəsələrə keçməsi qaydalarını müəyyənləşdirən hüquq normalarının məcmusudur. Mülki Məcəllənin 1151-ci maddəsinə müvafiq olaraq, mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir. Yəni mirası qəbul etmiş vərəsələr universal hüquq varisliyi qaydasında miras qoyanın öhdəliklərini də qəbul etmiş olurlar.

Mülki Məcəllənin 558-ci maddəsinə əsasən, əgər borclunun şəxsi iştirakı olmadan icra mümkün deyilsə, onun ölümü öhdəliyin xitamına səbəb olur. Həmin Məcəllənin 1153-cü maddəsinə görə, şəxsi xarakter daşıyan və yalnız miras qoyana mənsub ola bilən əmlak hüquqları və vəzifələr, habelə qanunda və ya müqavilədə nəzərdə tutulan, yalnız kreditorun və borclunun sağlığında qüvvədə olan və onların ölümü ilə xitam verilən hüquq və vəzifələr mirasın tərkibinə daxil deyildir. Beləliklə, şəxsi xarakterli hüquq və vəzifələr vərəsəlik qaydasında ölmüş şəxsin vərəsələrinə keçmir. Borclunun kredit müqaviləsindən irəli gələn vəzifələri isə şəxsə bağlı olmayan və şəxsən icranı tələb etməyən, üçüncü şəxslər tərəfindən icrası mümkün olan əmlak xarakterli öhdəliklərdir. Bu səbəbdən də kredit müqaviləsi üzrə borclunun ölümü ilə onun öhdəliklərinə xitam verilmir və bu öhdəliklər miras qoyanın vərəsələri tərəfindən icra edilməlidir.

Belə ki, Mülki Məcəllənin 1306-cı maddəsinə uyğun olaraq, vərəsələr miras qoyanın mövcud olan və onun ölümü ilə xitam olunmayan bütün öhdəlikləri üzrə qəbul etdikləri miras əmlakdakı paylarına mütənasib surətdə birgə borclu kimi məsuliyyət daşıyırlar. Həmin Məcəllənin 1146-cı maddəsi miras qoyanın öldüyü günün və ya fiziki şəxsin ölmüş elan edilməsi barədə məhkəmə qərarının qüvvəyə mindiyi günün mirasın açıldığı vaxt sayıldığını müəyyən edir. Mülki Məcəllənin 1255-ci maddəsinə əsasən isə qəbul edilmiş miras onun açıldığı gündən vərəsənin mülkiyyəti sayılır.

Göstərilən normaların məzmunundan çıxış edərək Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, mirası qəbul etmiş vərəsələr miras açıldığı gündən öhdəliyin icrasına görə məsuliyyət daşıyırlar. Lakin nəzərə alınmalıdır ki, vərəsələr miras əmlak ilə bağlı sərəncam hüququnu bir çox hallarda mirasın açıldığı andan həyata keçirə bilmirlər. Belə ki, Mülki Məcəllənin 1246-cı maddəsinə görə, vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirası qəbul edə bilər. Miras açıldığı gündən altı ay keçdikdən sonra mirasın qəbuluna yol verilmir. Vərəsə mirasın açıldığı yer üzrə notariat kontoruna mirası qəbul etdiyi barədə ərizə verdikdə və ya əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktik başladıqda və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdikdə miras vərəsə tərəfindən qəbul edilmiş sayılır. (Mülki Məcəllənin 1243.2-ci maddəsi). Göründüyü kimi, qanunverici vərəsələrə miras açıldığı gündən üç ay ərzində mirası qəbul etmək imkanı vermiş və bu müddətin altı aya qədər uzadılmasını istisna etməmişdir. Bu baxımdan vərəsələr, bir qayda olaraq, miras açıldığı gündən altı ay ərzində əmlaka dair sərəncam vermək hüququna malik olmadığından, miras qoyanın kreditorları qarşısında öhdəliklərinin icrasını həyata keçirə bilmirlər.

Qeyd edilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, miras qoyanın kreditorları tərəfindən vərəsələrə qarşı öhdəliyin icrası ilə bağlı tələb irəli sürülərkən mirasın qəbulu ilə bağlı qanunvericilikdə müəyyən edilmiş müddətlər nəzərə alınmalıdır.

Müraciətdə qaldırılan borclunun ölümü halında onun öhdəliklərinə görə məsuliyyətin zamin və ya vərəsələr tərəfindən icra edilməli olması məsələsi ilə bağlı göstərilməlidir ki, zaminlik müqaviləsi aksessor xarakterli olmaqla əsas öhdəliyə təminat üsulu kimi çıxış edir. Bu səbəbdən də zaminin zaminlik müqaviləsi üzrə öhdəliyi "əlavə öhdəlik" mahiyyəti daşıyır. Yəni kreditorun zamindən öhdəliyin icrasını tələb edə bilməsi üçün, ilk öncə, borclunun, eləcə də onun vərəsələrinin öz vəzifələrini icra etməməsi və ya lazımınca icra etməməsi tələb olunur. Yalnız bundan sonra zaminə qarşı zaminlik müqaviləsindən irəli gələn öhdəliyin icrası barədə tələb irəli sürülə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu borclunun ölümü halında mirası qəbul etmiş vərəsələrin miras qoyanın öhdəlikləri üzrə borcluya çevrildiyini nəzərə alaraq hesab edir ki, ilk növbədə, mirası qəbul etmiş vərəsələr miras qoyanın kreditoru qarşısında məsuliyyət daşımalıdırlar. Vərəsələr əsas öhdəliyi icra etməkdən yayındıqları və ya lazımınca icra etmədikləri təqdirdə, eləcə də miras əmlakın həcmi vərəsələrə əsas öhdəliyi icra etməyə və ya lazımınca icra etməyə imkan vermədikdə, pozulmuş mənafeyinin təmin edilməsi üçün kreditorun zaminə qarşı tələb irəli sürmək hüququ yaranır.

Qanunverici öhdəliyi icra etmiş zaminin mənafelərinin müdafiəsini nəzərə alaraq, Mülki Məcəllənin 475.1-ci maddəsində kreditorun tələbini ödədiyi həcmdə sonuncunun borcluya qarşı malik olduğu hüquqların öhdəliyi icra etmiş zaminə keçdiyini müəyyən etmişdir. Yəni zamin öhdəliyi icra etdikdən sonra ona dəymiş zərərin əvəzini reqres qaydasında borcludan tam həcmdə, borclu öldüyü halda isə vərəsələrdən onlara çatan miras payı həcmində ödənilməsini tələb edə bilər.

Vərəsələrin məsuliyyətinin həddi ilə bağlı qeyd olunmalıdır ki, miras qoyanın borcuna görə vərəsələrin məsuliyyəti mirasın həcmi ilə məhdudlaşır. Belə ki, Mülki Məcəllənin 1306.1-ci maddəsinə əsasən, vərəsələr miras qoyanın kreditorlarının mənafelərini alınmış aktivdə özlərindən hər birinin payına mütənasib surətdə birgə borclu kimi tam ödəməyə borcludurlar.

Vərəsələrdən fərqli olaraq, zaminin məsuliyyətinin həddi miras əmlakın dəyəri ilə məhdudlaşmır. Bu isə zaminin məhz öhdəliyin borclu tərəfindən icra edilməməsinə görə müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, kreditorun mənafeyinin tam təmin edilməsinə məsuliyyətli olmasından irəli gəlir.

Xarici ölkələrin qanunvericiliyinə nəzər yetirdikdə, əksər ölkələrdə məhz bu yanaşmanın qəbul edildiyini görmək olar. Almaniya Federativ Respublikasının Mülki Qanunnaməsinə əsasən, əsas borclu öldükdə, zamin borclunun vərəsəsinin məhdud öhdəlik daşımasına istinad edə bilməz (Mülki Qanunnamənin 768.1-ci maddəsi).

Rusiya Federasiyasının Mülki Məcəlləsinə əsasən, borclunun ölümü, borclu hüquqi şəxsin yenidən təşkili zaminliyin xitamına səbəb olmur (Mülki Məcəllənin 367-ci maddəsinin 4-cü hissəsi).

Azərbaycan Respublikası Mülki Məcəlləsinin zaminliyə xitam verilməsi hallarını nəzərdə tutan 477-ci maddəsində borclunun ölümü halının zaminlik münasibətlərinin hüquqi qüvvəsinə təsiri məsələsi tənzimlənməmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndində mülkiyyət hüququ, o cümlədən dövlət, xüsusi və bələdiyyə mülkiyyətinin hüquqi rejimi, əqli mülkiyyət hüququ; digər əşya hüquqları; öhdəlik hüququ barədə qaydaların müəyyən edilməsi Azərbaycan Respublikası Milli Məclisinin (bundan sonra - Milli Məclis) səlahiyyətinə aid edilmişdir.

Qeyd olunanlara əsaslanaraq, Konstitusiya Məhkəməsinin Plenumu zaminliyə xitam verilməsini tənzimləyən Mülki Məcəllənin 477-ci maddəsinin qanunverici tərəfindən təkmilləşdirilməsini məqsədəmüvafiq hesab edir.

Zamin və vərəsələrin əsas borca görə hesablanan faizlərə dair məsuliyyətli olub-olmaması məsələsinə gəlincə isə qeyd olunmalıdır ki, Mülki Məcəllənin 399.3-cü maddəsinə əsasən, müqavilədə nəzərdə tutula bilər ki, müqavilənin qüvvədə olma müddətinin qurtarması tərəflərin müqavilə üzrə öhdəliklərinin xitamına səbəb olur. Belə şərtin olmadığı müqavilə öhdəliyin icrasının qurtarmasının həmin müqavilədə müəyyənləşdirilmiş anına qədər qüvvədə sayılır. Göründüyü kimi, müqavilənin müddətinin bitməsi, əks hal razılaşdırılmadığı təqdirdə tərəflər arasında müqavilə münasibətlərinin sona çatmasına səbəb olmur, tərəflər arasında öhdəlik münasibətləri davam edir, kreditor yenə də borcludan müqavilədən irəli gələn öhdəliklərin icrasını tələb etmək səlahiyyətinə malik olur.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, kredit müqaviləsi üzrə borclunun ölümü də tərəflər arasında mövcud olan müqavilə münasibətlərini başa çatdırmır və əsas borca görə faizlər hesablanmaqda davam edə bilər.

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2008-ci il 18 noyabr tarixli 34 nömrəli Protokolu ilə təsdiq edilmiş "Banklarda kreditlərin verilməsi" Qaydalarına uyğun olaraq hər bir bank kredit riski və kreditlərin verilməsi üzrə bankların daxili strategiya və qaydalarına dair minimum tələbləri müəyyən edən bankdaxili qaydalarında kreditlərin verilməsi meyarları, onların ödəniş müddətləri və şərtləri, borcun tutulması, ayrı-ayrı kreditlər və onların müxtəlif növləri üzrə faiz dərəcələrinin hesablanması, güzəştlər, kreditlərin növlərindən və gecikdirilmə müddətindən asılı olaraq faizləri hesablanmayan statusa keçirilməsi halları və s. məsələləri tənzimləyən müddəalar nəzərdə tutmalıdır.

Göründüyü kimi, borclunun ölümündən sonra faizlərin hesablanmasının davam etməsi və ya dayandırılması, yəni güzəştlərin tətbiqi məsələsi bankdaxili qaydalara uyğun olaraq müəyyənləşdirilə bilər. Lakin o da nəzərə alınmalıdır ki, mülki hüququn mühüm prinsiplərindən biri də vicdanlılıq prinsipidir. Mülki Məcəllənin 5.3-cü maddəsinə əsasən, mülki hüquq münasibətlərinin subyektləri öz hüquq və vəzifələrini vicdanla həyata keçirməyə borcludurlar. Yəni kreditorlar borclu öldüyü halda faizlərin hesablanmasının davam edib-etməməsi məsələsinə baxarkən vicdanlılıq prinsipindən çıxış etməli, miras qalmış əmlakın həcmi, vərəsələrin maddi durumu və s. kimi halları nəzərə almalıdırlar.

Dəbbə puluna görə zamin və vərəsələrin məsuliyyətli olub-olmaması məsələsi ilə bağlı qeyd olunmalıdır ki, Mülki Məcəllənin 462.1-ci maddəsinə müvafiq olaraq, dəbbə pulu (cərimə, penya) müqavilə ilə müəyyənləşdirilən, öhdəliyin icra edilmədiyi və ya lazımınca icra edilmədiyi, o cümlədən icranın gecikdirildiyi halda borclunun kreditora ödəməli olduğu pul məbləğidir. Maddənin məzmunundan göründüyü kimi, dəbbə pulu öhdəliyin icrasının təmini üsulu olmaqla yanaşı, həm də borclunun öz öhdəliyini icra etməməsi və ya lazımınca icra etməməsinə görə tərəflərin müəyyən etdiyi məsuliyyət növüdür. Öhdəliyin icrasının təmini üsulu, eləcə də öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsinə görə məsuliyyət növü olaraq dəbbə pulunun borclunun ölümündən sonra müqavilənin icrasını davam etdirəcək zamin və vərəsələrə münasibətdə də tətbiqi mümkündür. Lakin nəzərə alınmalıdır ki, məsuliyyətin bir növü olaraq dəbbə pulunun ödənilməsini kreditor yalnız borclunun, borclu öldüyü halda isə vərəsə və ya zaminin təqsiri olduğu təqdirdə tələb edə bilər. Belə ki, Mülki Məcəllənin 462.2-ci maddəsinə əsasən, əgər borclu öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün məsuliyyət daşımırsa, kreditor dəbbə pulunun ödənilməsini tələb edə bilməz. Beləliklə, öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsində vərəsələr və ya zaminin təqsiri olduğu halda kreditor dəbbə pulunun ödənilməsi ilə bağlı tələbi bu hərəkətləri törətmiş şəxsə qarşı irəli sürə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu şərh olunan məsələ ilə bağlı məhkəmələrdə xeyli sayda mübahisələrin mövcudluğunu nəzərə alaraq və kreditlərin qaytarılması üzrə gələcəkdə yarana biləcək problemlərin qarşısını almaq üçün kredit verilərkən kredit müqavilələri üzrə borcalanın həyatının ölüm halından sığorta etdirilməsini məqsədəmüvafiq hesab edir. Bu, həmçinin "Fiziki şəxslərə təqdim edilən müəyyən könüllü sığorta növləri üzrə vahid sığorta qaydaları haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 22 aprel tarixli 398 nömrəli Sərəncamından da irəli gəlir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Mülki Məcəllənin 470, 472-ci, eləcə də 1146, 1255 və 1306-cı maddələrinə uyğun olaraq, borclunun ölümündən sonra, ilk növbədə, mirası qəbul etmiş vərəsələr miras açıldığı gündən onlara çatan miras payı həcmində miras qoyanın kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar. Miras qoyanın kreditorları tərəfindən vərəsələrə qarşı öhdəliyin icrası tələbi irəli sürülərkən, mirasın qəbulu ilə bağlı qanunvericilikdə müəyyən edilmiş müddətlər nəzərə alınmalıdır.
- Borclunun ölümü zaminliyin xitamına səbəb olmur. Zaminin ölmüş borclunun kreditorları qarşısında məsuliyyətinin həddi miras əmlakın həcmi ilə məhdudlaşmır. Əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, vərəsələr öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, eləcə də miras əmlakın həcmi vərəsələrə öhdəliyi icra etməyə imkan vermədikdə, zamin kreditor qarşısında tam məsuliyyət daşıyır.
- Vərəsələr və zamin borclu öldükdən sonra əsas borcdan əlavə, faiz borcuna görə də məsuliyyət daşıyırlar. Borclunun təqsirli hərəkətləri nəticəsində öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda hesablanmış dəbbə pulunun ödənilməsi ilə bağlı tələb kreditor tərəfindən bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş qaydada vərəsələr və ya zaminə qarşı irəli sürülə bilər. Vərəsələr və ya zaminin təqsirli hərəkətləri nəticəsində öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi təqdirdə kreditor dəbbə pulunun ödənilməsini bu hərəkətləri törətmiş şəxsdən tələb edə bilər.
- Mülki Məcəllənin zaminliyə xitam verilməsi hallarını nəzərdə tutan 477-ci maddəsinin bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla təkmilləşdirilməsi Milli Məclisə tövsiyə edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### QƏRARA ALDI:

**1.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 470, 472-ci, eləcə də 1146, 1255 və 1306-cı maddələrinə uyğun olaraq, borclunun ölümündən sonra, ilk növbədə, mirası qəbul etmiş vərəsələr miras açıldığı gündən onlara çatan miras payı həcmində miras qoyanın kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar. Miras qoyanın kreditorları tərəfindən vərəsələrə qarşı öhdəliyin icrası tələbi irəli sürülərkən, mirasın qəbulu ilə bağlı qanunvericilikdə müəyyən edilmiş müddətlər nəzərə alınmalıdır.

**2.** Borclunun ölümü zaminliyin xitamına səbəb olmur. Zaminin ölmüş borclunun kreditorları qarşısında məsuliyyətinin həddi miras əmlakın həcmi ilə məhdudlaşmır. Əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, vərəsələr öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, eləcə də miras əmlakın həcmi vərəsələrə öhdəliyi icra etməyə imkan vermədikdə, zamin kreditor qarşısında tam məsuliyyət daşıyır.

**3.** Vərəsələr və zamin borclu öldükdən sonra əsas borcdan əlavə, faiz borcuna görə də məsuliyyət daşıyırlar. Borclunun təqsirli hərəkətləri nəticəsində öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda hesablanmış dəbbə pulunun ödənilməsi ilə bağlı tələb kreditor tərəfindən bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş qaydada vərəsələr və ya zaminə qarşı irəli sürülə bilər. Vərəsələr və ya zaminin təqsirli hərəkətləri nəticəsində öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi təqdirdə kreditor dəbbə pulunun ödənilməsini bu hərəkətləri törətmiş şəxsdən tələb edə bilər.

**4.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin zaminliyə xitam verilməsi hallarını nəzərdə tutan 477-ci maddəsinin bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

**5.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**6.** Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

**7.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad ABDULLAYEV.**

# Yüksək ictimai-siyasi fəaliyyəti ilə seçilən, vətənpərvər insan



**Möhkəm əqidəli, vətənpərvər şəxsiyyət, Heydər Əliyev ideyalarına sadiq olan Yaşar Əliyev xalqımız və dövlətimiz qarşısında mühüm xidmətlər göstərmiş, özünün səmərəli fəaliyyəti ilə hüquqi dövlət quruculuğu yolunda böyük töhfələr vermişdir.**

1948-ci ildə Bakı şəhərində anadan olan, 1966-cı ildə Bakı şəhəri 1 saylı orta məktəbi bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Tibb İnstitutuna qəbul olan və 1971-ci ildə oranı bitirərək həkim ixtisasına yiyələnən Yaşar Əliyev əmək fəaliyyətinə 1972-ci ilin yanvar ayından Səhiyyə Nazirliyinin Baş İdarəsinin Kardiologiya şöbəsinin 4 saylı bölməsində başlayıb. Gənc yaşından ictimai-siyasi sahədə fəal iştirak edən Yaşar Əliyev partiya və komsomol işində aktivlik nümayiş etdirərək müxtəlif tədbirlərdə uğurla təmsil olunub. Bunun nəticəsi kimi, Yaşar Əliyev 1975-ci ilin oktyabr ayından 1979-cu ilin may ayınadək Bakı şəhəri Əzizbəyov Rayon Komsomol Komitəsinin II katibi vəzifəsində çalışıb. Bu, yüksək prinsipiallığa və vətənpərvərlik hissinə malik olan Yaşar Əliyevin ictimai-siyasi işlərdə fəal təmsil olunduğunu ifadə edən mühüm faktlardan biridir.

Yaşar Əliyevin əmək fəaliyyətinin çox mühüm mərhələlərindən birini onun 13 il ərzində Semaşko adına Baki şəhəri 1 nömrəli xəstəxanaya uğurla rəhbərlik etməsi ilə bağlıdır. O, 1982-ci ilin dekabr ayına kimi həkim, sonra baş həkimin müavini və 1984-cü ilin mart ayından xəstəxananın baş həkimi işləyib. O zaman ölkəmizdə ən böyük tibb müəssisəsinin baş həkimi olan və 2500 nəfərdən artıq personalın təmsil olunduğu böyük bir kollektivə uğurla rəhbərlik edən Yaşar Əliyev bu müddət ərzində səhiyyə sahəsində innovasiyaların tətbiqi və elmi təcrübə mübadiləsi sahəsində mühüm xidmətlər göstərib. Onun rəhbərliyi dövründə xəstələrin müayinəsi və müalicəsi sahəsində mühüm irəliləyişlər qeydə alınıb, yeni korpuslar və laboratoriyalar istifadəyə verilib, bəhs olunan tibb müəssisəsinin işi xeyli dərəcədə təkmilləşib. Bu dövrdə çoxsaylı elmi müdafiələr və təcrübələr də həyata keçirilib.

Mühüm məqamlardan biri budur ki, Sovet imperiyası tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş 20 Yanvar faciəsi zamanı güllələbaran edilmiş - xəsarət almış və dünyasını dəyişmiş insanlar Semaşko adına Bakı şəhəri 1 nömrəli xəstəxanaya gətirilmiş və bütün bunlar sənədləşdirilərək deputat-istintaq komissiyasına və Respublika Prokurorluğuna təqdim edilmiş, o cümlədən bir çox ölkələrin səfirliklərinə göndərilmişdi.

Ümummilli məsələlərdə daim prinsipial mövqedən çıxış edən Yaşar Əliyevi cəmiyyətə daha yaxşı tanıdan amillərdən biri onun 1990-cı illərin əvvəlində vətənpərvər bir ziyalı kimi Azərbaycanın qarşılaşdığı problemlərə görə narahatlıq keçirməsi və ölkəmizin xaosdan, anarxiyadan qurtulması üçün ümummilli lider Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə gəlməsi uğrunda aparılan mübarizədə yer alması idi. O da digər vətənpərvər insanlar kimi, həmin dövrdə ölkəmizin üzləşdiyi çətinliklərdən yeganə xilas yolunu ulu öndər Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə gəlməsində görürdü.

Məlumdur ki, həmin dövrdə hakimiyyətdə olan rəhbərlərin yarıtmaz və antimilli siyasəti nəticəsində Azərbaycan xaos və anarxiya ilə üzləşmişdi, tənəzzülün məngənəsində idi, eyni zamanda, ermənilərin Azərbaycan torpaqlarını işğalı davam edirdi. Belə bir mürəkkəb və çətin şəraitdə yeganə çıxış yolu ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi idi. Yaşar Əliyev belə bir situasiyada əsl vətəndaşlıq mövqeyi nümayiş etdirərək Ulu Öndərin ölkəni xilas etməsinin zəruriliyini qeyd edir, bu istiqamətdə fədakar və mübariz yanaşma ortaya qoyurdu. Hələ Ümummilli Lider Naxçıvan MR-da olarkən Heydər Əliyevin Hüquqlarının Müdafiəsi Komitəsinin üzvü kimi Yaşar Əliyev fədakarlıq nümayiş etdirərək dəfələrlə muxtar respublikaya səfər etmiş, Onunla görüşərək mənəvi dəstəyini ifadə etmiş, Ulu Öndərin Azərbaycanda hakimiyyətə gəlməsinin xalqın tələbi olduğunu ifadə etmişdi. Yaşar Əliyev Heydər Əliyevə və Onu dəstəkləyənlərə qarşı təzyiqlərin olduğu bir dönəmdə parlamentdə də Ulu Öndərin fəal müdafiəçisi kimi çıxış edirdi. O, 1992-ci ilin mayın 18-də AXC - "Müsavat" cütlüyünün hakimiyyəti qəsb etməsi, qeyri-qanuni yolla və parlamentə təzyiq göstərilməsi metodu ilə İsa Qəmbərin Milli Məclisə sədr seçilməsi ilə bağlı çıxış edərək öncə ölkədəki vəziyyətin müzakirə edilərək müvafiq qiymətləndirilməsini, bundan sonra parlament sədrinin seçilməsini tələb etmiş və parlament sədri postuna ən layiqli namizədin məhz təcrübəli dövlət xadimi, dünya siyasətini dərindən bilən Heydər Əliyev olduğunu cəsarətlə vurğulamışdır. Parlamentdə ulu öndər Heydər Əliyevə qarşı kampaniya aparılarkən Yaşar Əliyev Ümummilli Liderin azsaylı müdafiəçilərindən biri idi. Bu dövrdə parlamentdə təmsil olunan 360 deputatdan, hansı ki, onların böyük əksəriyyəti Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə dövlət və hökumət strukturlarında vəzifəyə, rayon rəhbərliyinə irəli çəkilmişdi,- yalnız bir neçəsi bu təşəbbüsü dəstəkləmişdi və Yaşar Əliyev də bu sırada yer alırdı. AXC-"Müsavat" hakimiyyətinin "parlament çevrilişi" olaraq 360 deputatın səlahiyyətlərinin 50 nəfərdən ibarət deputata verilməsi ilə yaradılmış Milli Şura əslində qətiyyən milli iradəni ifadə etmirdi. Lakin xalqın nəzərində öz legitimliyini tam itirməmək üçün onun sıralarında obyektivliyi və peşəkarlığı cəmiyyətdə şübhə doğurmayan Yaşar Əliyev kimi ziyalıların da təmsil olunmasına imkan verilmişdi. Həmin vaxt AXC-"Müsavat" hakimiyyəti, xüsusilə parlamentin o dövrdəki rəhbərliyi ulu öndər Heydər Əliyevin Milli Şuranın üzvü olmadığı üçün parlamentə sədr seçilməsinin mümkün olmadığı iddiası ilə çıxış edərkən məhz Yaşar Əliyev Heydər Əliyevin Milli Şuraya seçilməsi üçün öz deputat mandatından imtina etməyə hazır olduğunu ifadə edərək əsl vətəndaşlıq və yüksək vətənpərvərlik mövqeyi nümayiş etdirmişdi.

Yaşar Əliyev, həmçinin 18 oktyabr 1991-ci il tarixində qəbul edilmiş Müstəqillik Aktına səs verən şəxslərdən biri olub. Məlum olduğu kimi, 1990-cı ildə XII çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı, 1992-ci ildə isə Milli Şuranın üzvü seçilən Yaşar Əliyev qanunvericilik sahəsində də öz fəaliyyəti ilə hüquqi dövlətin inkişafına və parlamentarizm ənənələrinin möhkəmləndirilməsinə xidmət edib. 1994-cü il oktyabrın 14-dən əmək fəaliyyətini Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini kimi davam etdirən Y.Əliyev 1995-ci ildə I çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçilib, parlament sədrinin müavini kimi fəaliyyət göstərib. O, səmərəli fəaliyyətinin qanunauyğun nəticəsi kimi, 2000-ci ildə parlament seçkilərində növbəti dəfə seçicilərin yüksək etimadını qazanıb.

Milli Məclisin deputatı kimi 12 illik fəaliyyəti dövründə Yaşar Əliyev qanun yaradıcılığı və hüquqi dövlət quruculuğu prosesində, hüquqi bazanın formalaşdırılmasında, qanunvericiliyin təkmilləşdirilməsində yaxından iştirak edib. Onun ictimai-siyasi fəaliyyətinin çox mühüm səhifələrindən birini ümummilli lider Heydər Əliyevin Sədri olduğu Azərbaycan Respublikasının Konstitusiyasının qəbulu üzrə Dövlət Komissiyasının üzvü olması, Konstitusiyanın hazırlanması və qəbuluna öz dəyərli töhfələrini verməsi təşkil edir.

Yaşar Əliyev Azərbaycanın beynəlxalq əlaqələrinin daha da yaxşılaşdırılması və dünyada mövqeyinin möhkəmlənməsi istiqamətində də yorulmaz fəaliyyət göstərib, müstəsna xidmətləri ilə yadda qalıb. MDB ölkələrinin Parlament Assambleyasının Şurasının üzvü olan, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına iki dəfə vitse-prezident seçilən Yaşar Əliyev həm də beynəlxalq aləmdə ölkəmizi layiqincə təmsil edib, Azərbaycan həqiqətlərinin fəal təbliğatçısı olub. Y.Əliyev parlamentlərarası münasibətlərin inkişafında, səmərəli əlaqələrin qurulması və genişləndirilməsi istiqamətində əhəmiyyətli işlər görüb. Ən mühüm məqamlardan biri budur ki, Yaşar Əliyev hər zaman Ermənistanın işğalçı siyasəti nəticəsində torpaqlarımızın 20 faizinin işğal altında olduğunu nəzərə çatdırıb, milli məsələlərlə bağlı qətiyyətli və fəal mövqedə dayanıb. Uzun müddət İran-Azərbaycan Dövlətlərarası Komissiyasının sədri olan Yaşar Əliyev iki ölkə arasında münasibətlərin inkişafına özünəməxsus töhfələr verib. AXC - "Müsavat" hakimiyyəti dövründə pozulmuş İran-Azərbaycan əlaqələrinin bərpa olunmasında - ikitərəfli təmasların sıxlaşmasında Y.Əliyevin təşəbbüsləri mühüm rol oynamışdır. O, bu mərhələdə İran prezidenti və ali dini rəhbəri ilə 10 dəfədən çöx görüşmüş, rəsmi səfərlərin həyata keçirilməsində və müqavilələrin imzalanmasında yüksək təşkilatçılıq qabiliyyəti nümayiş etdirmişdir.

Onun Azərbaycan dövləti qarşısında müstəsna xidmətlərindən birini 2002-2011-ci illər ərzində Çin Xalq Respublikasında (ÇXR) Azərbaycanın fövqəladə və səlahiyyətli səfiri kimi səmərəli fəaliyyəti təşkil edir. Y.Əliyev bu dövrdə Azərbaycan-Çin münasibətlərinin inkişafına, iki ölkə arasında ticarət dövriyyəsinin artmasına, diplomatik əlaqələrin intensiv xarakter almasına və müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə mühüm töhfələr verib. ÇXR-də azərbaycanlıların hüquqlarının müdafiə olunması, iqtisadi fəaliyyətinin qurulması və davam etdirilməsi, o cümlədən partiyalararası münasibətlərin - Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələrin qurulması və inkişafı istiqamətində də çoxsaylı işlər görmüşdür. Bütövlükdə, Yaşar Əliyev bu müddət ərzində ÇXR-dən əlavə, Vyetnam, Monqolustan, Cənubi və Şimali Koreya dövlətlərində ölkəmizin fövqəladə və səlahiyyətli səfiri kimi uğurlu fəaliyyət göstərmişdir. Onun səfir kimi fəaliyyət göstərdiyi müddətdə Çində dəfələrlə Azərbaycan günləri keçirilib. Xüsusi olaraq Çində Olimpiya Oyunları keçirilən il böyük bir mədəniyyət tədbiri - Çində Azərbaycan Mədəniyyəti Günləri təşkil edilib. Həmçinin Şanxay şəhərində ənənəvi olaraq təşkil olunan beynəlxalq "Ekspo" sərgisində Azərbaycan guşəsinin yaradılması və ölkəmizin təbliğ edilməsində də onun mühüm xidmətlərini diqqətə çatdırmaq lazımdır. Yaşar Əliyev yuxarıda göstərilən dövlətlərlə yanaşı, digər Şərq və Qərb ölkələri ilə də əlaqələrin qurulmasında da müstəsna rol oynayıb.

Bütövlükdə, həm səhiyyə sahəsində uğurlu fəaliyyəti ilə yadda qalan, həm də ictimai-siyasi fəaliyyətində mühüm nailiyyətlər qazanan Yaşar Əliyevin - peşəkar diplomat və təcrübəli parlamentarinin dövlətçiliyin qorunması və inkişafı istiqamətində fəaliyyəti daim yüksək qiymətlədirilib. Təsadüfi deyil ki, cənab Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Yaşar Əliyevin "Şöhrət" ordeni ilə təltif edilməsi onun fəaliyyətinə verilən qiymətin bariz ifadəsidir. O, həmçinin Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Prezidentin fərdi təqaüdünə layiq görülüb. 2000-ci ildə Müstəqil Dövlətlər Birliyinin "Sodrujestvo" ordeni ilə təltif olunan Yaşar Əliyev 20-dən çox elmi əsərin müəllifi, Ukrayna Akademiyasının tibb doktoru və Moldova Respublikasının fəxri doktorudur.

Nəticə etibarilə, öz səmərəli fəaliyyəti ilə müsbət nümunə yaradan, alicənab şəxsiyyət kimi tanınan və geniş ictimaiyyətin dərin rəğbətini qazanan Yaşar Əliyevin ömür yolu - həyat və fəaliyyəti həm gənclər, həm də bütövlükdə cəmiyyət üçün parlaq nümunədir.

**Əli SADIQOV,**
**"Respublika".**

# Bakı Konqres Mərkəzində "SABAH"ın məzunu-2018" mərasimi keçirilib

**İyulun 5-də Bakı Konqres Mərkəzində "SABAH"ın məzunu-2018" mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Yusuf Məmmədəliyev, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, ali məktəblərin rektorları, təhsil ekspertləri və məzunlar iştirak ediblər.



Əvvəlcə tədbir iştirakçıları mərkəzin foyesində "Mən "SABAHAM" mövzusunda sərgi ilə tanış olublar.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlanıb.






"SABAH" qruplarının fəaliyyəti haqqında videoçarx nümayiş etdirilib.

Tədbirdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın "SABAH"ın məzunu" mərasiminin iştirakçılarına ünvanladığı təbrik məktubu oxunub.

Məktubu Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Yusuf Məmmədəliyev oxuyub.

Məktubda deyilir ki, təhsil strateji və prioritet sahə olmaqla dövlətimizin daim diqqət mərkəzindədir. Prezident İlham Əliyev tərəfindən 2013-cü ildə imzalanmış "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsasən, ölkəmizdə təhsil sahəsində bir sıra əsaslı islahatlar keçirilib və bu proses indi də davam edir. Bizim əsas hədəflərimizdən biri universitetlərdə tədrisin keyfiyyətini artırmaq və qlobal əmək bazarının tələbələrinə cavab verən məzunlar yetişdirməkdir. "Təhsil millətin gələcəyidir" - məhz bu fikri əsas tutaraq ölkə rəhbərliyinin başçılığı ilə son illərdə təhsil sahəsində bir sıra yüksək göstəricilərə nail olmuşuq. Bu gün Azərbaycanda savadlılıq demək olar ki, 100 faiz təmin olunub. Belə bir mühit, ilk növbədə, sizə - gənclərə çoxsaylı imkanlar yaradır. Təbii ki, ölkəmiz son illər ərzində bütün sahələr üzrə inkişaf edir. Prezident İlham Əliyevin söylədiyi kimi, biz elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Buna nail olmaq üçün isə əlbəttə ki, gənclər bilikli olmalıdır. Bu fikir, şübhəsiz, bizim gələcəyə baxışımızı və hədəflərimizi müəyyən edir.

Bildirilir ki, qısa dövrdə Xalq Cümhuriyyətinin ən böyük nailiyyətlərindən biri də məhz təhsil sahəsində olan yeniliklər idi. Azərbaycan dilində tədrisə başlanılması, ilk universitetin yaradılması və gənclərin xaricdə təhsilinə dəstək verilməsi kimi mühüm addımlar atılıb. Lakin bundan sonra biz nailiyyətlərimizi qoruyub saxlamağa və daha da yüksək zirvələrə qaldırmağa birlikdə çalışmalıyıq. Buna nail olmaq hər bir Azərbaycan vətəndaşı, xüsusilə siz gənclərsiz mümkün deyil.

Təhsil naziri Ceyhun Bayramov təhsilin inkişafının ölkəmiz üçün bütün dövrlərdə müstəsna əhəmiyyət daşıdığını vurğulayıb. Nazir Prezident İlham Əliyevin "qara qızılın insan kapitalına çevrilməsi" konsepsiyasının dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrildiyini, həyata keçirilən təhsil islahatlarının məhz bu məqsədə xidmət etdiyini diqqətə çatdırıb.

Nazir qeyd edib ki, "SABAH" layihəsi beynəlxalq təcrübənin öyrənilməsi ilə yanaşı, məhz Azərbaycanın dəyərləri və ölkə qarşısında duran məqsədlər nəzərə alınaraq yaradılmış bir təhsil modelidir. Dörd il əvvəl yaradılmış "SABAH" qruplarının ilk nəticələri haqqında danışan nazir bildirib ki, 2017-ci ildə ali təhsil müəssisələrini bitirmiş 721 "SABAH" məzununun 37 faizi Azərbaycanda, 16 faizi isə xarici ölkələrdə magistratura səviyyəsində təhsilini davam etdirir.

Müasir və sürətlə dəyişən dünyada uğura gedən yolun peşəkar bilik və bacarıqların, innovasiyalara açıq olmaq qabiliyyətinin birliyindən keçdiyini deyən C.Bayramov bu yolda "SABAH" məzunlarına uğurlar arzulayıb, onları təbrik edib.

"SABAH"ın məzunları - Bakı Musiqi Akademiyasının tələbəsi Vüsalə Babayeva və Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Samir Hüseynov "SABAH"ın onlar üçün yaratdığı imkanlardan, bu qruplarda müasir dünyanın tələblərinə cavab verən yüksək hazırlıqlı mütəxəssislərin yetişməsi üçün münbit şəraitdən danışıb, əldə etdikləri bilik və bacarıqların gələcək karyeralarında əhəmiyyətli rol oynayacağını vurğulayıblar.

Daha sonra təhsil aldıqları müddətdə ən yüksək akademik göstəricilər əldə edən "SABAH" məzunlarına sertifikatlar təqdim olunub, həmçinin rəmzi "SABAH" açarı üçüncü kurs tələbələrinə verilib.

Sonda "SABAH" qruplarının himni səsləndirilib.

Qeyd edək ki, "SABAH" qrupları 2014-2015-ci tədris ilində 34 ixtisas üzrə yeddi dövlət ali təhsil müəssisəsində yaradılıb. Hazırda 12 ali təhsil müəssisəsində fəaliyyət göstərən "SABAH" qrupları 40-dan artıq ixtisas üzrə 2300-dən çox tələbəni əhatə edir. Cari tədris ilində isə 842 "SABAH" məzunu təhsilini başa vurub.

**AZƏRTAC**

# Azərbaycan Texnologiya Universiteti (UTECA) İsveçrənin "RİETER" şirkəti ilə təhsil mərkəzi yaradır

Azərbaycan Texnologiya Universiteti əməkdaşlıq etdiyi müəssisələrin coğrafiyasını genişləndirir. UTECA yüngül sənaye sahəsində nüfuza sahib, Mingəçevir Tekstil Fabrikini ən son yüngül sənaye avadanlıqları ilə təchiz edən Avropa şirkəti ilə birgə təhsil mərkəzi yaradır. İlkin mərhələdə İsveçrənin "RİETER" şirkəti tərəfindən Mingəçevir Tekstil Fabrikində UTECA tələbələri üçün tam təchizatlı laboratoriyanın yaradılması nəzərdə tutulur. UTECA-nın yüngül sənaye mühəndisliyi və maşın mühəndisliyi ixtisasları üzrə təhsil alan tələbələrindən formalaşdırılacaq qrup həftədə 2 dəfə Mingəçevir Tekstil Fabrikinə təcrübə məşğələlərinə gedəcək. Laboratoriyanın fabrikdə yerləşməsi prosesin sonrakı mərhələlərini tələbələrin istehsalatda əyani şəkildə izləyə bilmələrinə hesablanıb.



"REİTER"in nümayəndələri Rolf Uillen və Martin Frehner zəruri, ən son texnologiyalara cavab verən tədris avadanlıqlarını universitetə verməyə və onlarla bağlı bütün praktik təlimləri keçməyə hazır olduqlarını bildiriblər. Görüşdə iştirak edən Türkiyənin "TEMSAN" şirkətinin baş direktoru Cem Erdoğrul isə qeyd edib ki, təmsil etdiyi şirkət bu cür sənaye müəssisələrini yardımçı avtomatlaşdırıcı qurğular ilə təchiz etməklə məşğuldur. Şirkət həmçinin ali təhsil müəssisələrində yüngül sənaye ixtisasları ilə bağlı tədris proseslərinə də dəstək verir. Türkiyənin Ege Universitetində bu təcrübəni tətbiq etdiklərini deyən "TEMSAN" rəsmisi UTECA üçün də analoji addımı atmağa, laboratoriyanı yardımçı qurğularla təmin etməyə hazır olduqlarını bildirib.

Mingəçevir Tekstil Fabrikinin icraçı direktoru Mahir Hüseynov isə rəhbərlik etdiyi müəssisəyə bu sahə üzrə ixtisaslı, müasir texnoloji proses və avadanlıqlara bələd kadrlar lazım olduğunu, buna görə də layihəyə hər cür dəstək göstərməyə hazır olduqlarını deyib. Görüş zamanı tərəflər arasında UTECA-nın tələbə və müəllim heyətinin İsveçrəyə, "RİETER" şirkətinə əlavə təlimlərə gedəcəyinə dair ilkin razılıq da əldə olunub.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# İyulun son hərracı

**Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən dövlət əmlaklarının özəlləşdirilməsi ilə bağlı növbəti hərrac 31 iyul tarixində keçiriləcək. İnvestorların özəlləşmə prosesinə marağını nəzərə alaraq iyulun son hərracına müxtəlif çeşidli 73 dövlət əmlakı çıxarılıb. Bunlardan 21-i səhmdar cəmiyyəti, 31-i kiçik dövlət müəssisə və obyekti, 17-si qeyri-yaşayış sahəsi, 4-ü nəqliyyat vasitəsidir.**

Hərraca çıxarılan səhmdar cəmiyyətləri məişət, təmir-tikinti, sənaye, aqrar, nəqliyyat, inşaat, istehsal və s. sahələrə aiddir. Belə iri müəssisələr sırasında "Əli Bayramlı Kimyəvi Təmizləmə", "Xosrov Metal Plastmas", "Astara çay-3", "Sabunçu Ticarət Təchizat", "Ağcabədi Aqrotexservis", "Ucar ağac emalı" kimi səhmdar cəmiyyətləri var. Qeyd edək ki, hərraca çıxarılan səhmdar cəmiyyətləri paytaxtla yanaşı, respublikanın müxtəlif bölgələrində yerləşir. Prosesə çıxarılan səhmdar cəmiyyətlərin səhm paketləri nizamnamə kapitalının 30-45%-ni təşkil edir. Nizamnamə kapitalı 90 min manat olan "Sabunçu Ticarət Təchizat" Açıq Səhmdar Cəmiyyətinin səhmlərinin hərracda 44%-nin satılması nəzərdə tutulub.

Kiçik dövlət müəssisələri paytaxtla yanaşı, Göygöl, Qazax, Goranboy, Lənkəran və digər regionlarda yerləşir. Bu əmlaklar üçün təyin olunan ilkin qiymət 2 min və 500 min aralığındadır. Özəlləşdirilən əmlakların ümumi faydalı sahəsi isə 35 kvadratmetr ilə 9 min kvadratmetr arasında dəyişir. Bu dövlət əmlaklarına "Qubek Otel" İstirahət Zonası, Məmmədyarov kinoteatrı, "Çiçək" Sağlamlıq Mərkəzi və investora yüksək səmərə verəcək digər obyektlər aiddir. Bakı şəhəri, Qaradağ rayonunda yerləşən Əmlak kompleksi müxtəlif biznes sahələrində investora yüksək gəlir gətirə biləcək. Adıçəkilən dövlət əmlakının ümumi faydalı sahəsi 1 min 169 kvadratmetr, ilkin hərrac qiyməti isə 500 min manatdır.

Özəlləşdirilməsi nəzərdə tutulan istifadəsiz qeyri-yaşayış sahələri paytaxtın Suraxanı, Səbail, Nərimanov, Xətai və digər rayonlarında yerləşir. Hərraca çıxarılan belə əmlakların ümumi faydalı sahəsi 14 kvadratmetrə 295 kvadratmetr intervalında dəyişir. Bu isə vətəndaşların seçim şansını artırır. Bakı şəhəri, Xətai rayonu, Q.Məmmədov küçəsində yerləşən qeyri-yaşayış sahəsi ilkin hərrac qiyməti 75 min manat, ümumi faydalı sahəsi 295 kvadratmetr olmaqla investorlara təklif olunur.

Qeyd edək ki, olduqları məkandan asılı olmayaraq, hər kəs hərraclarda iştirakçı qismində qatıla bilər. Eyni zamanda, proseduru ziyarətçi kimi canlı izləmək də mümkündür.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Ömür dedikləri...



*Ömür nədir? Əslində o, yaşanmış illərin yaddaqalanıdır, yəni yaddaşda il qalıbsa il, ay qalıbsa ay, gün qalıbsa gün... Bu mənada ömrün uzunluğunu elə saatla, anla da ölçmək olar, ancaq əsl ömür onun dəyərində, onu necə yaşamağındadır. Bilirəm, yeni fikirlər deyil, ancaq söhbət yaşanan qos-qoca bir ömür payının yaddaqalan məqamlarından gedəcəksə, yazını elə belə başlamaq da quru, sönük görünməyə bilər. Əgər insana verilən iki: fiziki və mənəvi ömrün ikincisinin mənəvi yaşamaq hüququnu əməlinlə, adınla, idealınla qazana bilmisənsə...*

Əflatun Cəfərli, sözə, şeirə, sənətə bağlı bir ömür yaşadı. O, 1936-cı il dekabrın 5-də Gədəbəy rayonunun Böyük Qaramurad kəndində doğulmuşdu. Kəndin zəhmət adamlarının yaşam tərzi, gözəl mənzərəsi, saf təbiəti, laləli-nərgizli çəmənləri, yam-yaşıl ormanları, bir sözlə, Tanrının yaratdığı bütün gözəlliklər hələ uşaq ikən onu riqqətə gətirir, gələcək yaradıcılıq cücərtiləri baş qaldırırdı qəlbində. Şeir-sənət dünyasının sirli aləminə aşina olmaq kimi müqəddəs bir arzuyla yaşayır, qanad açıb uçan illər onun ömrünə əməlli-başlı iz salır, ilhamın istedad açarı ilə poeziya dünyasına qovuşurdu. “Gəlmişəm”, onun 1958-ci ildə “Kirovabad kommunisti” qəzetində çap olunan ilk şeiri idi. Azərbaycan Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsinin tələbəsi ikən mətbuata ayaq açan Əflatun Cəfərli 1961-ci ildə ali təhsilini başa vurduqdan sonra müəllimlik fəaliyyətinə başlamaqla bərabər ədəbi yaradıcılıqla da müntəzəm məşğul olur. 1963-1973-cü illərdə Bakının orta məktəblərində direktor müavini, direktor vəzifələrində işləyən Əflatun müəllim beləcə, uzun müddət təcrübəli pedaqoq, bacarıqlı təşkilatçı, rəhbər işçi kimi balalarımızın savadlanması, milli təhsilimizin inkişafı üçün böyük əmək sərf edir. Çəkdiyi zəhmət hədər getmir, dövlətimiz tərəfindən “Əmək veteranı” medalına layiq görülür. Bu illərdə o, eyni zamanda ölkənin ictimai həyatında fəal mövqe tutmaqla yanaşı, ədəbi prosesin gedişatından da geri qalmırdı. O, yaxşı bilirdi ki, şeir yaşamın özü, insan oğlunun “Tanrının ona bəxş etdiyi zaman boyunca sürüb keçdiyi ömür, insanların öz içərisindəki hüzuru, dincliyi, səadəti duyub onu başqalarına ötürməyi bacarmaqdır. “Çiynimdədir bu dünyanın qəm yükü, sevincinə tamarzıyam hələ ki...” - deyən şair “Hələ ki...” adlı şeirində “tarını qəm üstündə yüklədiyi” bu dünyada özünü “zirvələrin sal buzuna”, “qaşı itmiş bir üzüyə” bənzədir:

*Tərs elədi eləyimi eləyən,*
*Sevinmədi bələyimi bələyən.*
*Arzuları ürəyində mələyən*
*Yetim qalmış bir quzuyam hələ ki...*

“Hər sənətkar ömrünün sonuna qədər arayacaqdır” - deyirdi böyük türk şairi Nazim Hikmət. Yəni şeirdən-şeirə yeni bir forma yaratmağa məcburdur söz adamı, bir sözü varsa ona uyğun biçimi, şəkli, formanı tapmalıdır. Əflatun Cəfərli də ömrünün sonunadək bu fikrə sadiq qaldı, yazdı, şeirlərindəki çəkili, cazibəli, insanı düşündürən misralarla imkan və potensialı daxilində öz söz dünyasını qurdu.

Həyatda olduğu kimi, sənətdə də düzlük, halallıq, həqiqətin tərəfində duran şair bədii sözün və dilin təmizliyinin, saflığının, halallığının keşiyində idi. Gülə-gülə ağlayan, ağlaya-ağlaya dərd-qəm aləminə bürünən şair sözü dəyərdən salan, özünü şair kimi qələmə verənlərin iç üzünü açmağa çalışır, “duru suyu bulandırıb, yalan deyib üzə duranlara” dözə-dözə:

*Dedim: - Bu yol dolaşıqdı, əyridi,*
*Sözlərimi söz elədi, əyirdi.*
*Mən qazandım, əyri yedi, səyridi,*
*Yorğanıma astar üçün bezim yox*

- deyirdi “Bir nadana” adlı şeirində. Əlbəttə, sanki bütün sözlərin deyildiyi, şeirlərin yazıldığının söylənildiyi bir dövrdə şair olmaq, insanı varından yox edən şeirlər yazmaq o qədər də asan deyil, ancaq o şeirlərdə ki, misralar insanın sarı siminə toxuna, ruhunu tərpədə bilirsə, onu düşündürürsə, deməli, nə isə deyilib. Lap ən böyük əsər də, adi bir şeir parçası da hansısa zərurətdən doğulur. Əflatun Cəfərlinin də şeirləri həyatdan gəlirdi, müşahidə etdiyi, oxuduğu, eşitdiyi hadisələri içərisində biganə qalmadıqlarını öz təxəyyül süzgəcindən keçirərək bədiiləşdirirdi. Onun şeirlərini oxuyanda insan özünü həmin hadisələrin içində hiss edir, istədiyini sonda ondan ala bilir.

Əflatun Cəfərli 1984-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, altı kitabın müəllifi idi. “Xatirələr” kitabı 1968-ci, “Bizdən əvvəl doğulanlar” kitabı 1972-ci, “Ürək həmişə ürəkdir” kitabı 1980-ci, “Səni çağırıram” kitabı 1983-cü, “İki yasəmən” kitabı 1984-cü, “Dünya çiynindədir xeyirxahların” kitabı isə 1990-cı ildə işıq üzü görmüşdü. Əsərləri rus, gürcü, özbək dillərinə tərcümə olunub.

Sadə, təvazökar bir insan idi, dostluğa böyük dəyər, gənc yazarlara ağıllı məsləhətlər verir və bunu özünə mənəvi borc bilirdi:

*Ya qulaq as, ya sözümü kəs hərdən,*
*Öz işindi, tufan kimi əs hərdən.*
*Söz qılıncım daha düşüb kəsərdən,*
*Anlamaza, dilbilməzə sözüm yox.*

Sözlü, söhbətli idi Əflatun müəllim. Tez-tez xatirələrini dilə gətirir, həyat səhifələrini vərəqlədikcə arxada qoyub gəldiyi illərin acılı-şirinli məqamlarını təkrar-təkrar yaşayırdı sanki. Təbii ki, üzüldüyü anlar daha çox olurdu, xüsusən də sovet rejiminin ədəbiyyatımıza vurduğu yaraların illər ötsə də sağalmamasına təəssüflənirdi: “Ədəbiyyatımız çox qurbanlar verdi, Mehdi Hüseyn də onlardan biri idi. O, böyük ədəbiyyat uğrunda mübarizə apardığına çox inanırdı, həyata da elə bu çaxnaşmalar içərisində əlvida dedi. Əsərləri o zaman dünyanın tanınmış yazıçılarının əsərlərinə bərabər tutulan Mehdi Hüseyn cəmiyyətin haqsızlıqlarına tab gətirə bilmədi...”.

Əflatun Cəfərli həyatı boyu haqsızlıqlara qarşı çıxdı, istər pedaqoji sahədə, istərsə də yaradıcılıq aləmində hər zaman düzü axtarırdı. Sabirin təbirincə desək, “düzü-düz”, “əyrini-əyri” yazırdı.

Böyük bir elin ağsaqqalı idi Əflatun müəllim. Qapısını döyənləri heç vaxt ümidsiz qaytarmaz, yıxılanın qolundan tutar, yolunu azana düz yol göstərər, kimsəsizə arxa-dayaq olardı. Bir sözlə, el üçün qənimət olan insanlardan idi.

Sadə, zəhmətlə dolu bir ömür yaşadı, öz ömrünü, əməlləri, işləri ilə naxışladı onu. İç dünyasının, vətənçilik ideyasının, mübarizə əzminin, müqəddəs və ulu duyğularının təcəssümü olan şeirləri ilə bütünlükdə söz dünyamıza yazdı adını. Həyatı elə olduğu kimi sevdi, acılı-şirinli necə varsa, yetişdirdiyi minlərlə şagirdinə, dəyərli oxucularına da bunu aşıladı: ömrü elə yaşa ki, səndən sonra səni yaşada bilsin. Onu da yaşadacaq çox şeylər var, deməli, yaşamağa dəyərmiş...

**Zümrüd QURBANQIZI,**
**“Respublika”.**

# Azərbaycanlı hakim Avropa Şurasının mükafatı ilə təltif olunub

**Strasburqda Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (SEPEJ-in) geniş tərkibdə növbəti plenar iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclasda Avropa Şurasının 47 üzv dövlətini təmsil edən nümayəndələr, ədalət mühakiməsi sahəsində ixtisaslaşan müxtəlif beynəlxalq təşkilatların rəsmiləri və Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəliyinin əməkdaşları iştirak ediblər.

Plenar iclas çərçivəsində Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (SEPEJ) yaradılmasının 15 illiyinin qeyd olunması mərasimi keçirilib. Avropa Şurasının baş katibinin müavini Qabriella Battaini-Draqoni iclası açaraq SEPEJ-in 15 il ərzində əldə etdiyi nailiyyətlər münasibətilə tədbir iştirakçılarını təbrik edib. Avropada ədliyyənin inkişafı işində səmərəli və fasiləsiz fəaliyyət göstərmiş beş ölkənin Almaniya, Andorra, Macarıstan, Latviya və Finlandiyanın nümayəndələri Avropa Şurası tərəfindən təltif olunub.

SEPEJ-in vitse-prezidenti, azərbaycanlı hakim Ramin Qurbanov Avropa Şurasının mükafatını Almaniya və Finlandiya nümayəndələrinə təqdim edib.

SEPEJ-in prezidenti Georq Stava (Avstriya) və vitse-prezidenti Ramin Qurbanov Avropa Şurası tərəfindən Avropada ədliyyənin inkişafındakı xidmətlərinə görə mükafatla təltif olunublar.

Ədliyyə, məhkəmə, prokurorluq və vəkillik üzrə Avropa Şurasının nüfuzlu və ixtisaslaşmış qurumu olan Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (SEPEJ) 2002-ci ildə yaradılıb. SEPEJ-in əsas məqsədi Avropa məkanında ədalət mühakiməsi sistemlərinin səmərəliliyi və keyfiyyətinin artırılması, onların Avropa Şurası tərəfindən tətbiq edilən standart və normalara uyğunlaşma işində üzv dövlətlərə kömək göstərməkdir.

**AZƏRTAC**

*Səbail rayonu*

# Əhali ilə səyyar görüşlər keçirilir

**Ölkə başçısı cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Səbail rayonunun qəsəbə və yaşayış massivləri, ayrı-ayrı məhəllələrində hər həftə Rayon İcra Hakimiyyəti başçısının sakinlərlə görüşləri keçirilir.**

Rayonun qədim Bibiheybət qəsəbəsində Səbail RİH başçısı, təsərrüfat və digər xidmət sahələrinin, qəsəbə bələdiyyəsinin, ictimaiyyət və qəsəbədə fəaliyyət göstərən iş adamlarının nümayəndələrinin iştirakı ilə növbəti görüş keçirilmişdir.

Prezident İlham Əliyev tərəfindən ölkədə aparılan böyük abadlıq-quruculuq işləri, həyata keçirilən sosialyönümlü layihələr və həmçinin rayonda görülən işlər barədə məlumat verən **Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov** sakinləri narahat edən problemlərlə bağlı verdikləri sualları ətraflı cavablandırmış, onları maraqlandıran məsələlər ətrafında müzakirələr aparılıb.

Qəsəbə sahibkarlarının buradakı küçələrin işıqlandırılması işlərində yaxından iştirak etmələri ilə bağlı təklifləri müsbət qarşılanıb.

Daha sonra görüşdə iştirak edən sakinlər çıxış edərək ərazidə aparılan davamlı abadlıq-quruculuq işlərindən razılıq edərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş ediblər. Müraciətlərdə qəsəbənin su və qazla təminatı, yaxınlıqdakı müəssisənin ətraf mühitə zərər vurması, məhəllədaxili küçələrin təmiri, qurumuş ağacların kəsilməsi, məişət tullantılarının daşınması, yeniyetmələrin idmanla məşğul olması üçün meydançanın olmaması, mənzil şəraitinin yaxşılaşdırılması və onları narahat edən digər suallar səsləndirmişlər.



Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə konkret tapşırıqlar verib və müraciətlərin icrası nəzarətə götürülüb.

**Məhəmməd VƏLİYEV,**
**“Respublika”.**

# DİLÇİLİK ELMİNƏ DƏYƏRLİ TÖHFƏ




Uzun illər ərzində dilçilik elminin bir çox sahələrinin sistemli şəkildə araşdırılması onun formalaşmasına və inkişafına təkan vermişdir. Bu inkişafla bağlı mütəxəssislər və elmi-tədqiqatla məşğul olan tədqiqatçıların araşdırmaları dil bazasının genişlənməsinə, yeni terminlərin, anlayışların yaranmasına səbəb olur. Məhz buna görə də elmin bütün sahələrində çalışan tədqiqatçıların normativ sənədlərin tərtibi zamanı qarşılaşdıqları çətinlikləri aradan qaldırmaq, zəruri ehtiyaclarını təmin etmək məqsədilə elmi fəaliyyətdə istifadə olunan, elmi bazanı (termin, məfhum anlayışları əhatə edən) özündə əks etdirə bilən lüğətlərin ana dilində işlənib hazırlanması zərurəti yaranmışdır. Bu baxımdan tərtib olunan “İzahlı dilçilik terminləri lüğəti”ndə dilçilikdə istifadə olunan terminlər toplanmış və onların ana dilində izahı verilmişdir. Terminologiyanın dilin lüğət tərkibində xüsusi bir yeri vardır. Terminlər xüsusi elmi anlayışlar sistemidir. Odur ki, hər bir elm terminlər sisteminə malikdir. Müasir dövrdə terminologiya həm nəzəri, həm də praktik cəhətdən hərtərəfli öyrənilir, tədqiqat işləri yazılır, yeni-yeni araşdırmalar aparılır, ədəbi dilin leksik-semantik sistemində tutduğu yer müəyyənləşdirilir və sistemləşdirilir, unifikasiya edilir. Bunun müqabilində də terminləri şərh və izah edən müxtəlif tipli lüğətlər meydana gəlir. Bu baxımdan birdilli, ikidilli və çoxdilli terminoloji sözlüklər hazırlanır.

Birdilli terminoloji lüğətlər bir elm sahəsini əhatə etməklə, orfoqrafik, izahlı xarakterlidir. İkidilli, çoxdilli terminoloji lüğətlər isə tərcümə xarakterli olub bir neçə dilin (rus, ingilis, alman, fransız, türk və s.) terminləri tutuşdurulur, qarşılaşdırılaraq uyğunluqları verilir, normativ bir lüğət yaranır. Mənanın açılmasında tərcümə, sinonimlik, izahetmə və kalka üsullarından istifadə olunur.

Azərbaycanda da terminologiya xüsusi diqqət mərkəzində olmuş, lüğətlərin meydana gəlməsi sahəsində müəyyən işlər görülmüş və görülməkdədir. Hazırda dilimizdə elmin əksər sahələrində işlədilən terminlər sistemləşdirilərək lüğətlər tərtib edilmişdir.

1922-ci ildə Mərkəzi İcraiyyə Komitəsinin nəzdində yaradılan, 1952-ci ildə isə yenidən təşkil edilən və Azərbaycan EA-nın Rəyasət Heyəti yanında işini davam etdirən Terminologiya Komitəsinin (hazırda Azərbaycan Nazirlər Kabineti yanında) fəaliyyəti nəticəsində indiyə qədər 300-dən artıq izahlı, birdilli və çoxdilli terminoloji lüğət nəşr olunmuşdur.

Bu lüğətlər içərisində dilçilik elminə dair çap olunmuş sözlüklər də diqqəti daha çox cəlb edir. Belə lüğətlərdən biri **Terminologiya Komitəsinin sədr müavini, filologiya üzrə elmlər doktoru, professor Sayalı Sadıqovanın rəhbərliyi ilə yenicə işıq üzü görmüş “İzahlı dilçilik terminləri lüğəti”dir (2018).** Lüğət həcminə görə nəşr olunan sözlüklərdən çox fərqlənir. Lüğətdə 8500-dən bir qədər artıq termin toplanmış və izah olunmuşdur ki, bunlar da müasir dil, dil tarixi, dialektologiya, üslubiyyat, nitq mədəniyyəti, onomastika, müqayisəli və tətbiqi dilçiliklə bağlıdır.

Lüğətin baş redaktorları akademiklər İsa Həbibbəyli və Möhsün Nağısoyludur. Elmi redaktoru professor Sayalı Sadıqovadır. Tərtibçilər: AMEA Nəsimi adına Dilçilik İnstitutunun əməkdaşları: S.Sadıqova, N.Hüseynova, İ.Abdullayeva, S.Novruzova və Ş.Həsənli-Qəribovadır.

Qeyd edək ki, bu fundamental lüğətin ərsəyə gəlməsinə qədər Azərbaycanda bir neçə dilçilik terminlərinə aid sözlük nəşr edilmişdir. Bunlardan ilk lüğət 1939-cu ildə D.Quliyev tərəfindən tərtib olunan “Rusca-azərbaycanca dil və qrammatika terminləri lüğəti”dir. Lüğət Tarix, Dil və Ədəbiyyat İnstitutunda yerinə yetirilmişdir. Sözlük tərcümə xarakterli olmaqla, orta məktəb proqramı səviyyəsində hazırlanmışdır.

“Dilçilik terminləri lüğəti” adlı ikinci sözlük 1957-ci ildə nəşr olunmuşdur. Lüğət ilk sözlükdən onunla fərqlənir ki, orada artıq dilçilik terminləri yenidən nəzərdən keçirilmiş, əlavələr edilərək terminlərin sayı artırılmışdır. Lüğət o zaman Azərbaycan EA Rəyasət Heyəti yanında Terminologiya Komitəsində müzakirə olunaraq təsdiq edilmişdir. Tərtibçilər: R.Rüstəmov, M.Şirəliyev və C.Əfəndiyevdir. Lüğətdə köhnəlmiş ərəb və fars sözləri üstünlük təşkil etdiyinə görə müasir dilimizin tələblərinə cavab vermir.

Ə.Fərəcov tərəfindən tərtib edilmiş “Müxtəsər dilçilik lüğəti” 1960-cı ildə nəşr olunmuşdur. Müəllif sonralar onu təkmilləşdirərək 1969-cu ildə “İzahlı dilçilik lüğəti” adı altında nəşr etdirmişdir. Lüğətdə 400-ə yaxın termin daxil edilmişdir ki, onlar da orta məktəb şagirdləri və ali məktəb tələbələri, müəllimləri üçün nəzərdə tutulmuşdur. Adından da məlumdur ki, bu ilk izahlı qısa lüğət olmuş və dildə yaranmış terminlər tam şəkildə əksini tapmamışdır.

O vaxtdan bəri Azərbaycan dilçiliyi daha sürətlə inkişaf etməyə başlamış, dilimizdə yeni-yeni söz və terminlər yaranmış və ya alınmaların sayı artmışdır. Odur ki, yeni dilçilik terminləri sistemləşdirilməli, normativ bir lüğət hazırlanmalı idi. Bütün bunlar nəzərə alınaraq 1989-cu ildə bir qədər geniş həcmdə “İzahlı dilçilik terminləri” adlı sorğu lüğəti hazırlanıb nəşr edilmişdir.

Lüğət normativlik prinsipi əsasında yazılmışdır. Sözlük hazırlanarkən ali və orta məktəb dərsliklərində, dərs vəsaitlərində işlənərək sabitləşmiş terminlər əsas götürülmüşdür.

Müasir dövr lüğətlərindən biri də 2006-cı ildə nəşr olunan “Dilçilik ensiklopediyası” adlanır. İki cildlik ensiklopedik lüğət professor F.Veysəllinin müəllifliyi və redaktəsi ilə hazırlanıb. Lüğət sözlükləri 5 dildə - rus, alman, ingilis, fransız və Azərbaycan dillərində verilmişdir. İzahı isə Azərbaycan dilindədir. Misallar müvafiq dillərdən gətirilmişdir. Bəzən şərh olunan məsələ ilə bağlı başqa dillərin də misallarına müraciət olunmuşdur.

Lakin dilçilik elminin geniş tədqiqi ilə bağlı (ədəbiyyatlarda həmin sahədəki vəziyyəti əks etdirən) yeni terminlər və sözlər dinamik inkişafdadır. Dinamik inkişafla bağlı, bu sahədə müasir biliklər əsasında formalaşmış terminlər daima yaranır. Bütün bunlarla yanaşı, hazırda dilçiliyin sahələri genişlənmiş və çoxlu tədqiqat əsərləri yazılmışdır. Bunun nəticəsində bu sahədə yeni terminlər yaranmışdır. Müxtəlif dilçilik məktəblərinin və cərəyanların yaranması, ən geniş yayılmış terminlərin dilə gətirilərək fərqli mənalarda işlədilməsi və s. daha böyük, akademik dilçilik terminləri lüğətinin hazırlanmasını tələb edirdi. Bu terminləri toplamaq, yeni lüğətlər hazırlamaq zamanın tələbidir. Uzun çalışmalardan sonra ərsəyə gələn bu lüğətin özündən əvvəlkilərdən əsaslı fərqi ondan ibarətdir ki, dilçiliyin bütün sahələri ilə bağlı terminlər toplanmış və onların mənası, mahiyyəti ətraflı izah edilmişdir. Məhz bu cəhətlər əsas götürülərək, müasir tələblər nəzərə alınaraq belə bir lüğət - yeni fundamental “İzahlı dilçilik terminləri lüğəti” (Bakı, Elm, 2018) ərsəyə gəldi. 912 səhifədən ibarət lüğət sözlüyü, öz izahı və tərtibi prinsipləri ilə indiyə qədər çap olunan lüğətlərdən çox fərqlənir. Lüğət həm sözlüyünə görə, həm geniş tutumlu şərhinə görə, həm də normativliyinə görə diqqəti cəlb edir.

Lüğətdə həm milli dilimizə məxsus, həm də alınma söz və terminlər öz əksini tapır. 1989-cu ildə çap olunmuş “İzahlı dilçilik terminləri” lüğətində 700-dən bir qədər artıq dominant söz olduğu halda, bu lüğətdə isə 1500-dən artıq dominant söz vardır. Fərq göz qabağındadır. Söz-termin birləşmələrində də fərq çoxdur. Bu lüğətdə, həmçinin izah və şərhlər də ətraflı verilmişdir. Məsələn, nümunə üçün deyək ki, “aqlütinativ dillər” termin-söz birləşməsi ilk lüğətdə birləşmənin bir mənası verildiyi halda, yeni nəşr olunan lüğətdə bu termin daha geniş mənada şərh edilmişdir. Belə ki, aqlütinativ dillərin özünəməxsus xüsusiyyətləri altı maddədə tam şəkildə izah edilmişdir.

Lüğətin tərtibində aşağıdakı prinsiplər əsas götürülmüşdür:

*1. Lüğətdə bütün baş terminlər əlifba sırası ilə verilmişdir.*

*2. Terminlərin izahı Azərbaycan dilində məqalələr şəklində verilmişdir.*

*3. Terminlərin izahı Azərbaycan dilində konkret və dəqiq verilmişdir.*

*4. Müxtəlif mənalar verilən zaman onlar arasında nöqtəli vergül qoyulur.*

Lüğətin hazırlanmasında son illərdə nəşr olunmuş müxtəlif elmi-nəzəri ədəbiyyatlardan, monoqrafiyalardan, ali məktəb dərsliklərindən istifadə edilmişdir. Təqdim olunan termin və anlayışların məqalələr şəklində verilməsində əlifba prinsipi əsas götürülmüşdür. Belə yanaşma terminlərin Azərbaycan dilində geniş izahının asan əldə edilməsinə kömək edir. Lüğəti tərtib edən zaman yeni anlayışların ifadəsi üçün alınma terminlərdən çox sözseçmə prinsipinə - dilin lüğət tərkibində işlənən, ya da kalka yolu ilə yaradılan terminlərə üstünlük verilmişdir. Bununla yanaşı, son illərdə Avropa dillərindən dilimizə keçən beynəlxalq dilçilik terminlər mənbədə olduğu kimi verilmişdir. Alınma terminlər Azərbaycan dilinin qaydalarına uyğunlaşdırılaraq izahı verilmişdir. Terminlərin izahı elə qurulmuşdur ki, təsnifat nəticəsində onlar arasında yaranmış əlaqə itməsin. Lüğət tərtib edilərkən aşağıdakı istiqamətlər nəzərə alınmışdır: milli dilimizdə yaranan terminlər, vaxtilə rus dilindən və rus dili vasitəsilə başqa dillərdən alınma terminlər, hazırda qohum türk dillərindən alınma sözlər və dilimizə Avropa dillərindən birbaşa keçən terminlər.

Lüğətin quruluşu, tərtibi prinsipləri haqqında oxucular kitabın “Ön sözü” başlığında ətraflı tanış ola bilərlər. Tərtib olunan bu lüğət günümüzün aktuallığından qaynaqlanaraq bilavasitə bu sahədə mövcud olan terminləri toplayıb izahını verməklə ixtisas sahibi olan mütəxəssislərin, o cümlədən dilçilik əsərlərini oxuyarkən ortaya çıxan çətinliklərin mümkün qədər qarşısını almaq məqsədi daşıyır.

Onu da qeyd edək ki, yüksək elmi səviyyədə hazırlanmış “İzahlı dilçilik terminləri lüğəti” müasir tələblərə tam cavab verir və yüksək poliqrafik səviyyədə nəşr olunmuşdur. Hətta türk xalqları dilçiliyində akademik lüğətin tərtibində nümunəvi bir mənbədir. Sistemləşdirmə, tərtibetmə, sözlük baxımından səciyyəvi olan bu lüğət gələcəkdə yaranan terminoloji ensiklopediyalar üçün baza hesab edilə bilər.

**Nəriman SEYİDƏLİYEV,**
**filologiya elmləri doktoru.**

# Yeni Azercell Eksklüziv indi Şamaxıda

**Abunəçilərinin rahatlığı və xidmət səviyyəsinin daha da yüksəldilməsi məqsədilə Azercell Telekom paytaxt və regionlarda eksklüziv mağazalarının fəaliyyətini genişləndirir. Bu dəfə şirkət Şamaxı şəhəri, Ağamirzəli Əhmədov küç. 1 ünvanında açılan yeni konsepsiyalı ofisini abunəçilərin ixtiyarına verib.**



Xatırladaq ki, ən müasir avadanlıqla təchiz olunan mağazanın xüsusi özəlliyi ofisdə açıq sahələrin mövcudluğu, servislərin və seçim imkanlarının rahatlığıdır. Belə ki, burada abunəçilər istədiyi məhsulu müqayisə edə, sınaqdan keçirə bilərlər. Düzgün seçim etməkdə, xidmətlərə qoşulmaqda və digər məsələlərdə isə müştərilərə peşəkar satış mütəxəssisləri dəstək olur. Bu mağazada da “izahlı qaimə” və “addan-ada” əməliyyatları istisna olmaqla, şirkətin müştəri xidmətləri mərkəzlərində təqdim olunan bütün əməliyyatlar da icra olunur. Burada abunəçilər mobil texnologiyaları dəstəkləyən əlavə cihazlar, müxtəlif aksessuarlar əldə edə, mobil telefonları kredit və nağd şəkildə ala bilərlər. Mağaza həftənin bütün günləri fasiləsiz olaraq səhər saat 9:00-dan axşam 20:00-a qədər abunəçilərə yüksək keyfiyyətli xidmət göstərməyə hazırdır. Onu da qeyd edək ki, açılış günündən etibarən 3 gün ərzində Azercell Eksklüziv mağazasından alış-veriş edən müştərilər xərclədikləri məbləğin düz 50% dəyərində hədiyyə qazanmaq imkanı əldə edəcəklər.



**Ülvi QARAYEV,**
**“Respublika”.**

# Respublikada heyvandarlığın inkişaf etdirilməsinə dair

**Ölkəmizdə vacib sahələrdən olan aqrar sektorun inkişaf etdirilməsi üçün zəngin təbii və iqtisadi şərait vardır. Bu zənginlikdən səmərəli və məqsədyönlü istifadə edilməklə əhalinin ərzaq məhsulları ilə təmin olunması mühüm dövlət əhəmiyyəti kəsb edir.**

Aqrar sahənin inkişaf etdirilməsinə ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə xüsusi diqqət verilmişdir. Kənd təsərrüfatı məhsulları istehsalına görə keçmiş SSRİ-də geridə qalan Azərbaycan Respublikası ulu öndərin vaxtında da birincilər sırasına çıxaraq 11 dəfə o dövrün ən yüksək dövlət mükafatlarına layiq görülmüşdür.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ölkədə aqrar sahənin inkişaf etdirilməsi barədə çox vacib və müstəsna dərəcədə əhəmiyyətə malik qərarlar qəbul etmişdir ki, bunun da nəticəsi göz qabağındadır.

Ölkəmizdə aqrar sahənin ən mühüm tərkib hissələrindən biri də heyvandarlıqdır. Heyvandarlığın əkinçilik sahələrindən fərqi ondadır ki, bu sahədə gerilik baş verdikdə onu aradan qaldırmaq üçün ən azı 4-5 il vaxt lazımdır. Onun inkişaf etdirilməsinə gündəlik qayğı tələb olunur. İnsanlara xidmət istisna olmaqla, elə bir sahə yoxdur ki, heyvanlara xidmət qədər qayğı tələb etsin.

Respublikada heyvandarlığın vəziyyətinə nəzər salsaq aşağıdakı mənzərəni müşahidə etmək olar. Hazırda ölkədə 2693,0 min baş cəmi qaramal, o cümlədən 1258,0 min baş inək və camış, 8454,3 min baş qoyun və keçi, 30473,4 min baş quş, 68,5 min baş at və 271,7 min baş arı ailələri mövcuddur. Qaramal, qoyun-keçilər, arı ailələrinin 98-99 faizi, quşların isə 59 faizi fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarının payına düşür.

Maraqlı burasıdır ki, iribuynuzlu heyvandarlıq təsərrüfatlarının 40 faizində cəmi 1-4 baş, 38 faizində 5-9 baş, 19 faizində 10-19 baş, cəmi 0,2 faizində isə 100-2 min baş mal-qara saxlanılır. Qoyunçuluq təsərrüfatlarında da eyni vəziyyətdir. Quşçuluq təsərrüfatlarında isə bu rəqəmlər quşçuluq fabrikləri ilə əlaqədar bir qədər yüksəkdir. Bu rəqəmlər onu göstərir ki, heyvandarlıqda xırda təsərrüfatlarda elmi nailiyyətlərin və yeni müasir texnologiyaların tətbiqi uzun zəhmət və vaxt tələb edəcəkdir. Belə ki, 310,0 minə yaxın ailə və fermer təsərrüfatlarının cəmi 420-də malqara sayı 100-dən 2 min başa qədər təşkil edir. Təcrübə göstərir ki, nisbətən iri (ən azı 50 başlıq) təsərrüfatlarda həm sənaye üsuluna keçmək, həm də yeni texnologiyaların tətbiqi nisbətən asandır.

Buna görə də bir çox qabaqcıl ölkələrdə mal-qara təsərrüfatlarında onların optimal həcmi yüksəkdir, məsələn, ABŞ-da fermer təsərrüfatlarında mal-qaranın orta sayı 50-dən yuxarıdır. Ölkəmizdə bu məsələnin həlli üçün yaxşı baza yaradılmış, Kooperasiya haqqında qanun qəbul edilmişdir.

Məlum olduğu kimi, kooperasiya bərabərhüquqlu tərəfdaşlıq şəklində fermerləri cəlb etməklə, onlar təsərrüfat müstəqilliklərini tam saxlayır və idarəetmə qərarlarının qəbulunda məsuldurlar. Aqrar kooperativlərə keyfiyyət müstəvisində iqtisadiyyatın vacib mexanizmi kimi yanaşdıqda, onların inkişafı üçün dövlət stimullaşdırıcı siyasət aparır. Onlara vergi güzəştləri edilir, subsidiyalar, texnikalar verilir, bank hesabları açılır, kreditlər ayrılır. Həmçinin elmi nailiyyətlərin və qabaqcıl texnologiyaların tətbiqi üçün bütün şərait yaradılır.

Hazırda maldarlıq üzrə yaradılmış 40-a yaxın iri kompleks sənaye üsulu ilə işləyərək hər inəkdən süd məhsuldarlığını ildə 4500-5 min kq-a qədər qaldırmışdır. Heyvandarlıq məhsulları istehsalı və mal-qaranın məhsuldarlığı ildən-ilə artsa da, hələlik tələbatı tam ödəmir. Keçən il hər inək və camışdan süd məhsuldarlığı 1600 kq-a qədər olmuşdur ki, bununla kifayətlənmək olmaz.

Bir sıra rayonlarda isə hər inək və camışdan il ərzində 800-1200 kq süd sağılmışdır. Əgər bir ailə bir və ya 5 baş inək saxlayırsa və onlardan ildə 1200 kq süd sağılırsa, deməli, gündəlik hər inəkdən orta hesabla 4 kq süd alır ki, bu da iqtisadi cəhətdən ona heç bir fayda verməz. Hesab edirik ki, həmin təsərrüfatlarda süd sağımı düzgün hesablanmır, buzovlara içirilən südlər hesaba alınmır. Əgər inəyə lazımi qulluq göstərilməsə belə, o, ildə 1000-1200 kq süd verə bilər. Bütün bunlar onu göstərir ki, respublika üzrə hər inək və camışdan sağılan südün miqdarı daha çoxdur. Bundan başqa, hər inək və camışdan sağılan süd ayrıca göstərilərsə, bu rəqəm daha yüksək olardı. Ümid edirik ki, Kənd Təsərrüfatı Nazirliyi və Dövlət Statistika Komitəsi yerli təşkilatları ilə birlikdə məsələyə bir daha münasibət bildirəcəklər.

Mal-qaranın say məsələsinə gəldikdə, bazar iqtisadiyyatı şəraitində bu, hər bir fermerin özü tərəfindən müəyyən edilir. Ancaq onlara izah edilməlidir ki, az məhsuldar heyvan bəsləyib ona xidmət etmək o qədər də fayda vermir. Məsələn, ölkəmizdə mövcud olan 1285,8 min ana inək və camışdan ildə təxminən 2200,0 min ton süd istehsal olunur. İqlimi və təbii şəraiti bizdən heç də yaxşı olmayan İsraildə isə hər inəkdən ildə 12200 kq süd sağılaraq 200,0 min baş inəkdən 2400,0 min ton süd istehsal olunur.

**Heyvandarlıqda** məhsul istehsalının artırılması, onun keyfiyyətinin yaxşılaşdırılması və maya dəyərinin aşağı salınmasında mühüm məsələlərdən biri **möhkəm yem bazasının** yaradılması və mal-qaranın tam dəyərli yem payları ilə yemləndirilməsidir. Düzgün yemlənmə həm də normal balaların alınması və xəstəliklərə dözümlülüyü artırır, müxtəlif cinslərin yeni mühitdə iqlimə uyğunlaşmasına şərait yaradır.



Hazırda respublikanın əksər təsərrüfatlarında mal-qaranın yem bazasının əsasını, orta hesabla 80-85 faizini qaba yemlər təşkil edir ki, bu da gündəlik yem paylarının zootexniki qaydada aparılmasına imkan vermir. Əgər 1982-ci ildə ölkədə qaba yem istehsalı 2420,0 min ton idisə, 2017-ci ildə bu rəqəm 4500,0 min tona çatmışdır. Əslində bu, yaxşı göstəricidir, o şərtlə ki, sulu-şirəli yemlərin istehsalı da artaydı.

Elmi araşdırmalara və uzun müddət aparılan təcrübələrə əsasən südlük malların gündəlik yem paylarında qaba yemlər 30-35 faiz, sulu-şirəli yemlər 45-50 faiz (mövsümlə əlaqədar artıb-azala bilər), qüvvəli yemlər 10-12 faiz, mineral maddələr isə 1,5-2 faiz miqdarında olmalıdır. Onların süd məhsulundan asılı olaraq yemlərin miqdarında müəyyən dəyişikliklər aparmaq mümkündür. Qaba yemlərin mal-qaraya hazırlanmadan (doğranmadan, bişirilmədən, pörtlədilmədən və s.) verilməsi də öz mənfi təsirini göstərir.

Artıq ölkədə qüvvəli yem istehsal edən, onların qidalılığını artırmaq üçün tərkibini zənginləşdirən mini zavodların tikilib istifadəyə verilməsi çox vacibdir.

Bir çox inkişaf etmiş ölkələrdə mal-qara saxlayan fermerləri yem istehsalından azad edərək, ixtisaslaşdırılmış xüsusi yemçilik fermer təsərrüfatları və ya müəssisələri fəaliyyət göstərir. Mal-qara saxlayanlar həmin müəssisələrlə müqavilə bağlayır və onları qidalılığına görə balanslaşdırılmış yemlə təmin edirlər. Vaxtilə ölkəmizin bütün rayonlarındakı təsərrüfatlarda silos, senaj quyularında kifayət qədər sulu-şirəli yemlər hazırlanırdı. Bu quyularda qarğıdalı, yem çuğunduru, küləş, yonca otu karbamidlə qarışdırılaraq basdırılır və mal-qaraya yedizdirilirdi. Əgər ixtisaslaşdırılmış yemçilik müəssisələri (əlbəttə, əsasən özəl) yaradılarsa, bu problemi qismən həll etmək olar. Həmin müəssisələrə dövlət tərəfindən subsidiyaların verilməsi müsbət haldır. Biz bəzən heyvandarlıqda yeni texnologiyaların tətbiqinə can atarkən həyatda özünü təsdiq edən üsulları unuduruq. Məsələn, zootexnikada sağılan inəklərin ovşara gətirilməsi çoxdan məlum olsa da, ondan istifadə edilmir. Belə ki, inəklərə gündəlik yemlər verilərkən onun süd məhsulu ölçülür, yemlər artırıldıqca süd artır, nəhayət yem artırılsa da süd eyni miqdarda qalır. Deməli, inəyin potensialı müəyyən edilir və ona artıq yemlərin verilməsinə ehtiyac qalmır.

**Heyvandarlıqda** ən vacib məsələlərdən biri **damazlıq** işinin düzgün təşkilidir. Bütün dünyada damazlıq, baytarlıq və toxumçuluq sahələri əsasən dövlətin nəzarətindədir. Bəzi yerlərdə damazlıq deyəndə ancaq heyvanların süni mayalanması nəzərdə tutulur. Əlbəttə, süni mayalanma da əsasdır və son illərdə respublikada xeyli işlər görülmüş, haqlı olaraq bu işlərin təşkili və həyata keçirilməsi üçün mərkəz yaradılmış, ona rəhbərlik Azərbaycan Elmi-Tədqiqat Heyvandarlıq İnstitutuna həvalə edilmişdir.

Son zamanlar damazlıq işləri sanki bir qədər unudulmuşdur, onun strukturları, mərkəzdə, rayonlardakı idarələri, damazlıq təsərrüfatları ləğv edilmişdir. Nəticədə bir çox yüksək məhsuldar törədicilərin, ana malların, yerli şəraitə davamlı aborigen cinslərin həm göstəriciləri, həm də özlərinin itirilmək qorxusu yaranmışdır.

Bundan əvvəl Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan müxtəlif cinslər üzrə 20-yə qədər damazlıq müəssisəsi ləğv edildi, səbəb də onların maliyyə cəhətdən özlərini doğrultmaması oldu. Hesab edirik ki, belə müəssisələrə kiçicik maliyyə yardımı göstərilərsə, onlar qabaqcıl təcrübə obyektləri kimi istifadə olunaraq, hər bir heyvan cinsi üzərində elmi işlərin aparılmasına, o cinslərin qorunub saxlanmasına imkan yaradacaqdır. Belə müəssisələr həm dövlət, həm də özəl təsərrüfatların tabeliyində ola bilər.

Azərbaycan Respublikasının Milli Məclisi "Damazlıq işi haqqında" çox qiymətli Qanun qəbul etmişdir. Bu da ölkədə damazlıq işinə verilən diqqətdir, ondan səmərəli istifadə edilməlidir. **Hazırda "Aqrolizinq" yolu ilə** ölkəyə xaricdən yalnız iribuynuzlu mal-qara gətirilir. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən hər il lazımi qədər vəsait ayrılır. Gətirilən mallar fermerlərə lizinq yolu ilə verilir. Gətirilən cins heyvanların harada yerləşdirilməsi, binalar və yemlə təmin oluna bilməsi qabaqcadan müəyyənləşdirilir ki, onların gələcəkdə tələfatına yol verilməsin. Xarici ölkələrdən cins heyvan gətirildikdə onların gətirildiyi ölkənin (ərazinin, yerin) coğrafi-iqlim şəraiti, torpağı, suyu, yemlərin tərkibini təşkil edən bitki müxtəlifliyi ilə heyvanların yerləşdirildiyi təsərrüfatın analoji şəraiti arasında uyğunluq olmalıdır. Məsələn, Avstriyanın Alp dağlarında və ya Almaniyanın bol yaşıl yem sahələrində yerləşən heyvanların gətirilərək respublikanın Aran rayonlarında yerləşdirilməsi yolverilməzdir.

Bu baxımdan gətirilən cins heyvanların müvafiq olaraq hansı zonada yerləşdirilməsi üçün **cinslərin rayonlaşdırılması** planı işlənib hazırlanmalıdır.

Bütün dünyada heyvandarlıqda süd məhsuldarlığına görə subsidiya verilir, lakin **identifikasiya və qeydiyyat sistemi,** ilkin zootexniki uçot olmadan bunun tətbiqi mümkün deyil. Buna görə də başlanğıc olaraq iri südçülük təsərrüfatlarında **uçot və qeydiyyat sisteminin** (elektron variantı üzrə) qurulması vacibdir.

Dünyada gedən qlobal iqlim dəyişikliklərini nəzərə alaraq mövcud genefond nümunələri və xarici ölkələrdən gətirilən yüksək məhsuldar damazlıq materialların əsasında ekstremal şəraitə uyğunlaşan yeni heyvan cinslərinin və cinsdaxili qrupların yaradılması üzrə seleksiya işləri aparılmalıdır. Bunun üçün nazirlikdə damazlıq üzrə müstəqil qurumun yaradılması faydalı olardı.

Bütün bu işlərin həyata keçirilməsi zootexniki və baytar mütəxəssislərin fəaliyyətindən, səriştəsindən çox asılıdır. Həm ali təhsil müəssisələrində aldığı biliklərlə, qabaqcıl xarici ölkələrin təcrübəsini öyrənməklə buna nail olmaq mümkündür.

Şübhə yoxdur ki, böyük elmi və mütəxəssis potensialına malik olan Kənd Təsərrüfatı Nazirliyi, onun cavan və yeni rəhbərliyi respublikada aqrar sahələr üzrə qəbul edilmiş Dövlət proqramlarının həyata keçirilməsi istiqamətində lazımi tədbirləri həyata keçirəcəkdir.

**İmran ƏBİLOV,**
**Əməkdar kənd təsərrüfatı işçisi,**
**Respublika Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü.**

TƏKRAR

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**10 ədəd Miniven tipli minik avtomobillərin satınalınması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər **1000 (bir min) manat (ƏDV xaric) iştirak haqqını** sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

*VÖEN: 9900044741, hesab: AZ14AZPO91015461200420100157,*

*bank: Azərpoçt MMC PF 1, kodu: 691011, bankın VÖEN-i: 9900037711,*

*m/h: AZ76NABZ01350100000000094944, S.W.İ.F.T: AZPOAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **31 iyul 2018-ci il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 2% Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*

*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*

*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*

*4. Tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*

*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*

*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **08 avqust 2018-ci il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **09 avqust 2018-ci il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Qafarov Elxan Misir oğlu, tel.: (+994 12) 493-84-99.**

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən Tikinti mallarının satınalınmasına dair "Respublika" qəzetində 15.03.2018-ci il və 05.04.2018-ci il tarixlərində dərc edilmiş və tender.gov.az saytında yerləşdirilmiş açıq tender elanlarına əsasən 22.05.2018-ci il tarixində keçirilən müsabiqədə "Fəxrəddin K" MMC, "Yurd-F" MMC və "Aztol Alat" MMC tərəfindən təqdim olunmuş təkliflər qəbul olunmuşdur.

Qalib gəlmiş təşkilatlarla "Fəxrəddin K" MMC 25783.00 (iyirmi beş min yeddi yüz səksən üç manat 00 qəpik) manat, "Yurd-F" MMC 240385,03 (iki yüz qırx min üç yüz səksən beş manat 03 qəpik ) manat və "Aztol Alat" MMC 5841.00 (beş min səkkiz yüz qırx bir manat 00 qəpik ) manat ƏDV daxil məbləğlərdə qalib təşkilatlarla müvafiq satınalma müqavilələri imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Tender Komissiyası tərəfindən "Respublika" qəzetinin 06 iyun 2018-ci il tarixli sayında "LOT-2. Kompüterlərə və ofis avadanlıqlarına servis xidməti" üzrə keçirilməsi nəzərdə tutulmuş açıq tender iddiaçılar tərəfindən müraciət olmadığı üçün ləğv olunur.

**Tender Komissiyası.**

**Bakı Şəhəri Reklam İdarəsi bildirir ki, məişət cihazlarının satınalınması ilə bağlı keçirilmiş və 19 mart 2018-ci il tarixli yekun protokolu ilə təsdiq edilmiş kotirovka sorğusunun nəticələri ləğv edilir.**

TƏKRAR

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Sabirabad Rayon Mərkəzi Xəstəxanası 2018-ci il üçün tələb olunan malların (iş və xidmətlərin) satınalınması məqsədilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Tender 3 (üç) lot üzrə keçirilir:**

**Lot-1.** İnventaların satınalıması

**Lot-2.** Avadanlıqların satınalınması

**Lot-3.** Digər maşın və avadanlıqların satınalınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər bir lot üzrə 40 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Sabirabad rayonu, Qalaqayın kəndi (Sabirabad Rayon Mərkəzi Xəstəxanası) ünvanda əlaqələndirici şəxs: Ü.Əliyev, telefon: (021) 23-5-87-16 ala bilərlər.

İştirakçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

*Təşkilat: Sabirabad YXO*
*Hesab: AZ46AİİB32051019444400201144*
*VÖEN: 6800086231*
*Bank: "Kapital Bank" Sabirabad rayon filialı*
*Kodu: 200446*
*VÖEN: 9900003611*
*Müxbir hesabı:*
*AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T. BİK — AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi (əsli);*

*—tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*—tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*— iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitlər (notariusdan təsdiq edilmiş surəti);*

*—İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 07 avqust 2018-ci il saat 15:00-a qədər, bir nüsxədə tender təklifi və bank zəmanətini isə bağlanmış və möhürlənmiş ikiqat zərfdə iki nüsxədə (əsli və surəti) 16 avqust 2018-cı il saat 15:00-a qədər, Sabirabad Mərkəzi Rayon Xəstəxanası (ünvan: Sabirabad rayonu, Qalaqayın kəndi) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 17 avqust 2018-ci il tarixdə saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

**Əlaqə telefonu - (021) 23- 5-87-16**

**Ünvan: Sabirabad rayonu, Qalaqayın kəndi.**

**Tender Komissiyası.**

Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin İsmayıllı rayon Şöbəsi tərəfindən rayonun Buynuz kənd sakini Yaqubov Musa Səfiməmməd oğluna həyətyanı torpaq sahəsinə mülkiyyət hüququna görə verilmiş JN 127 F (kod 40727048) saylı Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 15 yanvar 1998-ci il tarixli 4 nömrəli qərarı ilə Pensər kənd sakini Abdullayeva Səhidə Hüseyn qızına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 618 A; KOD 80106018) itdiyi üçün etibarsız sayılır.

28.06.2018-ci ildə EMAS COMPANY MMC-yə məxsus olan möhür itdiyi üçün etibarsız sayılır

Məmmədov Musa İsa oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən Qeydiyyat Vəsiqəsi (Çıxarış) itdiyi üçün etibarsız sayılır (ünvan: Yevlax şəhəri, Malbinəsi kəndi).

Əliyev Allahverən Şükür oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən Qeydiyyat Vəsiqəsi (Çıxarış) itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəh., Yasamal r-nu, Z.Əhmədbəyov küç 12 (ümumi sahəsi 56.9 kvm, yaşayış sahəsi-42 kvm).

Əliyev Allahverən Şükür oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən Qeydiyyat Vəsiqəsi (Çıxarış) itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəh., Səbail r-nu, Leopold və Mistislav Rostropoviçlər küç 13, mənzil-5).

Əliyev Cahangir Tofiq oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən Qeydiyyat Vəsiqəsi (Çıxarış) itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəh., Nəsimi r-nu, B.Səfəroğlu küç-180, mənzil-33).

"Hippokrat Lab" MMC-nin VÖEN-i (VÖEN 1304670321), Reyestr sənədləri, Nizamnaməsi və möhürü itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Nizami rayonu, Qara Qarayev pr. 30/42, mənzil 44 Hacıyev Rasim Vəli oğluna məxsus evin çıxarışı itdiyi üçün etibarsız sayılır.

"P AQRO" MMC (VÖEN 1404226851) nizamnamə kapitalının azaldığını elan edir.

**Baş redaktor Teymur ƏHMƏDOV**

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi Əli SADIQOV
● Çapa imzalanmışdır 05.07.2018